## Günün sözü

### Prezident İlham Əliyev:

Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar. Bu məsələ insan hüquqları əsasında öz həllini tapmalıdır. Bu gün bizim hərəkətlərimiz onu göstərir və niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun.

## Sülh çağırışları getdikcə aktuallaşır



Səhifə ⇨ 3



Səhifə ⇨ 6

## Kolonnanı Cənubi Qafqaza nə bağlayır?


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 85 (30201) 27 aprel 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Bolqarıstan Azərbaycan qazının Avropa qapısına çevrilir





Azərbaycan Prezidenti İlham Əliyevin Bolqarıstana işgüzar səfəri çərçivəsində dövlətimizin başçısı və dost ölkənin rəhbəri Rumen Radevin iştirakı ilə reallaşan SOCAR-ın Sofiya ofisinin açılışı mərasimində Azərbaycan–Bolqarıstan enerji əməkdaşlığının sürətlə inkişaf etdiyi, bu sahənin ikitərəfli əlaqələrdə mühüm yer tutduğu xüsusi vurğulanıb.

Prezident İlham Əliyevin Bolqarıstana sonuncu – 2022-ci il 30 sentyabr–1 oktyabr tarixli rəsmi səfəri çərçivəsində Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorunun istismara verilməsi ilə ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda tamamilə yeni səhifə açıldığı da xatırladılıb.

(ardı 9-cu səhifədə)

## Bayrağımız Həkəri çayının üzərində dalğalanır

Səhifə ⇨ 2



## Volkov getdi, Lentsov gəldi... Nə dəyişəcək?

Səhifə ⇨ 3

## Qətiyyətin daha bir təntənəsi



Səhifə ⇨ 3

Səhifə ⇨ 6

## “Zəhmət olmasa, pasportunuzu təqdim edin!”



## Türkiyə avtomobil istehsalı ölkəsinə çevrilir

Səhifə ⇨ 10

## TRACECA transregional ticarətdə önəmli dəhlizdir



Səhifə ⇨ 7

Səhifə ⇨ 10





## Ukrayna NATO-ya gəlsin, gəlməsin?!..

## Sərhədimiz bütövdür...ermənilər isə yapışmağa saman çöpü axtarırlar

Səhifə ⇨ 4

## “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikasının Qanunu*

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12 (I kitab), maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311, № 10, maddə 1771, № 11, maddə 1962, № 12 (I kitab), maddələr 2242, 2269; 2018, № 2, maddə 168, № 3, maddə 387, № 5, maddələr 841, 859, 874, № 6, maddə 1190, № 11, maddə 2207, № 12 (I kitab), maddələr 2465, 2516; 2019, № 3, maddə 369, № 5, maddə 790, № 11, maddə 1693, № 12, maddə 1909; 2020, № 5, maddə 506, № 11, maddələr 1324, 1325, № 12 (I kitab), maddələr 1428, 1430; 2021, № 1, maddə 9, № 12, maddələr 1322, 1324, 1325; 2022, № 6, maddə 590, № 7, maddə 711, № 11, maddə 1238, № 12, maddə 1397; 2023, № 1, maddələr 29, 42) 2-ci maddəsinə “Vətən Müharibəsi Qəhrəmanı” medalı;” hissəsindən əvvəl aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı;”.

**Maddə 2.** “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 11 aprel 2023-cü il**

---

*Azərbaycan Respublikasının*
*2023-cü il 11 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında

## ƏSASNAMƏ

**Maddə 1. Təltif edilən şəxslər**

1.1. “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri aşağıdakılara görə təltif edilirlər:

1.1.1. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev irsinin tədqiqində və təbliğində xüsusi xidmətlərinə görə;

1.1.2. Azərbaycan Respublikasının dövlət quruculuğunda, o cümlədən milli azadlıq hərəkatında xüsusi xidmətlərinə görə;

1.1.3. azərbaycançılıq ideyasının həyata keçirilməsində, dünya azərbaycanlılarının həmrəyliyinin möhkəmləndirilməsində xidmətlərinə görə;

1.1.4. sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və beynəlxalq əməkdaşlığın inkişafında xidmətlərinə görə;

1.1.5. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasına və inkişafına, Azərbaycanın tərəqqisinə və şöhrətinin artmasına töhfə verən xidmətlərinə görə;

1.1.6. Azərbaycan Respublikasının sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə;

1.1.7. dövlət idarəçiliyində, dövlət qulluğunda və ictimai-siyasi sahədə səmərəli fəaliyyətinə görə.

**Maddə 2. Təltif edən orqan**

“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndinə uyğun olaraq təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda ordenlərdən sonra taxılır.

---

*Azərbaycan Respublikasının*
*2023-cü il 11 aprel tarixli Qanunu ilə təsdiq edilmişdir*

## “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) üzəri 999.9 əyarlı qızıl qatı ilə örtüləcək soyuq ştamplama üçün nəzərdə tutulmuş xüsusi tərkibli əlvan metaldan hazırlanan ümumi diametri 42 mm olan, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduzdan ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi relyefli xətlərlə işlənmiş səkkizguşəli ulduzun üzərində guşələri ağ rəngli mina ilə işlənmiş səkkizguşəli ulduz yerləşdirilmişdir. Ağ minalı səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış, diametri 26 mm olan dairəvi lövhə yerləşdirilmişdir. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca “HEYDƏR ƏLİYEV” sözləri, aşağı qövs boyunca “1923-2023” rəqəmləri yazılmışdır.

2.2. Daxili çevrənin içərisində, mərkəzdə Heydər Əliyevin barelyefi həkk olunmuşdur.

2.3. Bütün elementlər və yazılar relyefli olaraq qabarıqdır, qızılı rəngdədir.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfi hamar səthlidir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, yuxarı hissəsinə 34,5 mm x 1,5 mm ölçülü və aşağı hissəsinə 34,5 mm x 7,5 mm ölçülü, üzərində dəfnə yarpaqlarından ibarət çələng həkk olunmuş qızılı rəngli hamar lövhə bərkidilmiş, 31,5 mm x 15 mm ölçülü xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin üzərində hər birinin eni 10,5 mm olan, Azərbaycan Respublikası Dövlət Bayrağının rənglərini əks etdirən yaşıl rəngli, qırmızı rəngli və mavi rəngli şaquli zolaqlar əks olunmuşdur.

4.3. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş, 31,5 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

---

## “Heydər Əliyevin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsviri



---

## “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 258; 2022, № 5, maddə 498) birinci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** “Elnur Əliyev – Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin birinci müavini” sözləri “Rəşad Nəbiyev – Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri” sözləri ilə əvəz edilsin.

**2.** “Məmməd Abbasbəyli – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi” abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

“Samir Məmmədov – Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini”.

**3.** “Samir Məmmədov – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Aparatının rəhbəri” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 26 aprel 2023-cü il**

---

## 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 78-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

**1.** 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 1 500,0 (bir min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750,0 (yeddi yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,9 milyon (iki milyon doqquz yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

**Bakı şəhəri, 26 aprel 2023-cü il**

---

# Bayrağımız Həkəri çayının üzərində dalğalanır



**Azərbaycanın Ermənistanla şərti sərhədində - Laçın yolunda, Həkəri çayının üzərində qurulan sərhəd nəzarət-buraxılış məntəqəsində dünəndən etibarən üçrəngli bayrağımız dalğalanır.**

Azərbaycan Bayrağının qaldırılması mərasimində Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları iştirak ediblər. Bu münasibətlə DSX-nin polkovniki, Vətən Müharibəsi Qəhrəmanı Babək Ələkbərov Azərbaycanın Prezidenti, Ali Baş Komandan İlham Əliyevə məruzə edib:

“Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan! Məruzə edirəm ki, tapşırığınıza uyğun olaraq, Azərbaycan–Ermənistan dövlət sərhədində – Həkəri çayının üzərindəki körpünün üstündə fəxarət rəmzimiz olan üçrəngli dövlət bayrağımız dalğalanmaqdadır. Bununla da Vətən sərhədlərinin bütövlüyü təmin olunmuşdur. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!”

Onu da qeyd edək ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən 22 aprel tarixində birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət-buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq, aprelin 23-ü saat 12:00-da Azərbaycan DSX-nın bölmələri ölkəmizin suveren ərazisində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratmışlar.

Bu barədə Rusiya sülhməramlı kontingentinin və Rusiya–Türkiyə Monitorinq Mərkəzinin komandanlıqlarına məlumat verilmişdir.

***“Xalq qəzeti”***





# Sülh çağırışları getdikcə aktuallaşır



*Biz elə etməliyik ki, bütün münaqişələr tezliklə öz həllini tapsın. Elə etməliyik ki, insanlar bir-biri ilə xoş, mehriban ünsiyyətdə olsunlar. Bu işdə təkcə siyasətçilərin fəaliyyəti kifayət ola bilməz. Cəmiyyətdə yüksək hörmətə malik olan dini liderlərin sözünə böyük ehtiyac vardır. Bu söz eşidilir. Bu gün Bakıdan səslənən sözlər, verilən bəyanatlar, əlbəttə ki, dünyada da geniş əks-səda yaratmışdır.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı, 26 aprel 2010-cu il**

**Bəli, 13 il əvvəl Azərbaycan Prezidentinin təşəbbüsü ilə paytaxtımızdakı “Gülüstan” sarayında keçirilmiş Dünya Dini Liderlərinin ikigünlük Bakı Sammitinin çağırışları və qəbul edilən qətnamə bu gün də aktualdır. Çünki bəşəriyyət Üçüncü dünya müharibəsinin astanasındadır. Planetimizin müxtəlif yerlərindəki münaqişə, müharibə və qarşıdurmalar gündən-günə daha da alovlanır.**

Öz hegemonluğunu qorumağa və maraqlarını təmin etməyə çalışan qüvvələr “uf!” demədən, bəşər sivilizasiyasını ayaqlar altına atır, xalqların əsrlərdən bəri yaradıb topladığı maddi-mənəvi sərvətlərə qənim kəsilirlər. Heç kəs nə qazanacağını, nəyə nail olacağını bilməsə də, öz hikkəsindən əl çəkmir. Prezident İlham Əliyevin dönə-dönə vurğuladığı kimi, bu dəhşətli proseslərin dayandırılmasının təkcə siyasətçilərin, dövlət başçılarının öhdəsinə buraxılması o qədər də doğru addım deyil. Bu işdə dünyanın dini liderlərinin müxtəlif konfessiya təmsilçilərinin və görkəmli ədəbiyyat, mədəniyyət xadimlərinin xüsusi rolu ola bilər.

Azərbaycan Prezidenti və Heydər Əliyev Fondu bu məqsədlərə özünəməxsus töhfələr vermək üçün bəşər tarixinə düşəcək addımlar atmışlar. Mən Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2008-ci ildə mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulması məqsədilə irəli sürülmüş “Bakı prosesi”ni və Dünya Dini Liderlərinin Bakı sammitlərini nəzərdə tuturam. Azərbaycanın belə bir qlobal hərəkatların təşəbbüskarı kimi çıxış etməsinin əsasında ərazisində tarixən fərqli dini mənsubiyyəti olan icmaların, milli-etnik qrupların və zəngin mədəni müxtəlifliyin olması dayanır. Xatırladaq ki, 2018-ci il iyunun 12-də Parisdə Heydər Əliyev Fondu, ölkəmizin Fransadakı səfirliyi və UNESCO yanında daimi nümayəndəliyimizin təşkilatçılığı ilə “Bakı prosesi”nin 10 illik yubileyi qeyd olunmuşdu.

O zaman siyasi-diplomatik münasibətlərimizin yaxşı olduğu Fransa paytaxtı ilə bağlı bir faktı yada salmışkən, xatırladaq ki, Dünya Dini Liderlərinin Birinci Bakı Sammitində Ermənistan katolikosu II Qaregin də iştirak etmişdi. Katolikos Bakıdan bütün dünyaya çağırış səsləndirmişdi ki, bütün münaqişə və müharibələr sülhlə nəticələnməlidir. İndi həmin Fransa Azərbaycana qarşı tamamilə dəyişilmiş siyasət yürüdür, həmin qaragünlü Qaregin də açıq düşmənçilik toxumları səpməkdən əl çəkmir.

Xatırladaq ki, 13 il əvvəlki Bakı sammitində dünyanın 33 ölkəsindən ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox yüksək səviyyəli nümayəndə iştirak edirdi. Həmçinin bu mötəbər tədbirə 14 nüfuzlu beynəlxalq təşkilatın, eləcə də Rusiya Federasiyasının 11 subyektinin dini rəhbərləri və nümayəndələri də qatılmışdılar.

Prezident İlham Əliyev sammitdəki çıxışında demişdi ki, Azərbaycanda dini və milli dözümlülüyün çox böyük və şərəfli bir tarixi vardır. Biz çox şadıq ki, son vaxtlar Bakıda sivilizasiyalararası dialoqun gücləndirilməsi işinə böyük töhfə verən mötəbər beynəlxalq tədbirlər keçirilir: “Mən şübhə etmirəm ki, bu gözəl görüşün çox gözəl nəticələri olacaq, dinlər, millətlər və ölkələr arasında daha da yaxşı anlaşmanın əldə edilməsinə xidmət göstərəcəkdir. Buna böyük ehtiyac vardır. Bir daha vurğulamaq istəyirəm ki, biz Bakının, Azərbaycanın dinlərarası dialoqun bir növ mərkəzinə çevrilməsinə də çox böyük ümidlərlə baxırıq... Bu, bizim üçün böyük şərəfdir. Dinlərarası dialoqun praktiki nöqteyi-nəzərdən gücləndirilməsi işinə Azərbaycan öz töhfəsini verə bilər, verir və verməyə davam edəcəkdir”.

Dövlət başçımız dəfələrlə xatırladıb ki, biz öz milli və dini dəyərlərimizə sadiqik. Biz gənc nəsli vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə etmək istəyirik və bunu edirik.

Sonda qeyd edək ki, Prezident İlham Əliyev 2019-cu il noyabrın 14-də Bakıda keçirilən Dünya Dini Liderlərinin II Sammitinin açılışında İslam aləminin ən qədim məscidlərindən birinin Azərbaycanda yerləşməsi ilə fəxr etdiyini söyləmişdi: “Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir. Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri – Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi var. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi – Atəşgah yerləşir. Bu da onu göstərir ki, Zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir. Onu da bildirməliyəm ki, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir”.

*İttifaq MİRZƏBƏYLİ,*
*“Xalq qəzeti”*

# Qətiyyətin daha bir təntənəsi

## Sözü və əməli bir olan liderin dediklərinə heç kəsdə şübhə yeri qalmır

*Laçın yolunun son nöqtəsində – Ermənistan–Azərbaycan sərhədində Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması artıq labüddür.*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

**Prezident İlham Əliyev 2023-cü il martın 14-də Almaniyada səfərdə olarkən AFR Prezidenti Frank-Valter Ştaynmayerlə görüşündə Laçın yolunun son nöqtəsində – Ermənistan-Azərbaycan sərhədində nəzarət-buraxılış məntəqəsinin qurulması məsələsinin anonsunu vermişdi. Yuxarıda sitat kimi verdiyimiz fikri də Prezident məhz həmin görüşdə səsləndirmişdi.**



Təxminən ay yarım bundan əvvəl anonsu verilmiş konkret addımın belə tezliklə atılacağını bəlkə də çoxları gözləmirdi. Amma nəyi və nə zaman edəcəyini zərgər dəqiqliyi ilə düzgün hesablayan təcrübəli diplomat, regional və beynəlxalq müstəvidə aparıcı aktor kimi çıxış edən siyasi strateq İlham Əliyevin dediyi sözə əməl etdiyini, verdiyi vədlərə sadiq qaldığını bölgəyə birbaşa, yaxud dolayısı ilə dəxli olan bütün oyunçular yaxşı bilirlər. Axı, regionun liderinə, aparıcı dövlətinə çevrilmiş Azərbaycan həm də avropalı tərəfdaşları ilə gerçəkləşdirdiyi transmilli layihələrdə də özünü güvənilən, etimad olunan partnyor kimi təsdiqləyib.

### Deyilibsə, əməl edilməlidir

İndi hər şey o qədər rahat və asan görünür ki... Amma o zaman, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanması ərəfəsində Azərbaycan, Rusiya və Ermənistan arasında danışıqlar, İrəvanın Laçın dəhlizinin eninin 20 kilometr olması və Ermənistanın nəzarətinə verilməsi kimi təxribatçı cəhdlərinin qarşısını Prezident İlham Əliyev sərt və birmənalı mövqeyi ilə aldı. Üstəlik, yeni yolun inşası, Laçın rayonunun mərkəzinin Azərbaycana qaytarılması ilə bağlı prinsipial müddəalar sənəddə öz əksini tapdı. Bəli, 2022-ci ilin sentyabrında bir güllə belə atılmadan Laçın Azərbaycanın nəzarətinə keçdi. Sentyabrın 21-də Prezident İlham Əliyev Laçına səfər etdi, şəhərin mərkəzində üçrəngli Azərbaycan Bayrağını şəxsən özü qaldırdı. Hər bir azərbaycanlının qürur duyduğu həmin epizodda cənab Prezidentin dediyi sözlər indi də qulağımızdadır: “Cəmi bir il 8 aydan sonra alternativ yol hazır idi. Biz rəsmi qaydada bildiriş göndərmişdik ki, avqustun 2-də yol hazırdır, avqustun 5-də Azərbaycan Laçın şəhərinə və o cümlədən köhnə yola daxil olur və Laçın şəhərinə qayıdır. Ondan sonra bizə Qarabağda yaşayan ermənilər müraciət göndərərək xahiş etmişdilər ki, onlara avqustun 25-nə qədər əlavə vaxt verilsin. Baxmayaraq ki, burada qanunsuz məskunlaşma olub, biz yenə də humanistlik göstərərək, onlara bu imkanı verdik. Beləliklə, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq. Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır”.

### Separatizmə uyanların burnu ovulur

Bəs, bunun ardınca Qarabağ iqtisadi rayonumuzda yaşayan ermənilər nələrə əl atdılar? Torpağımızda qalmış Ermənistan ordusunun qalıqları, revanşist-daşnak təxribatçıları aranı sakit, bizi isə üzüyumşaq görüb, gizli yollarla Hayastandan Qarabağa silah-sursat, mina daşımağa başladılar. Ermənilərin Azərbaycandan taladıqları təbii sərvətləri Laçın yolu ilə Ermənistana çıxarmaları, yerli hərbi kontingent formalaşdırmaq cəhdləri artıq Bakının səbir kasasını doldurmaqda idi. 2022-ci ilin dekabrında ermənilərin aşkar görünən qanunsuz əməllərinin qarşısına sədd çəkməkdən ötrü Laçın-Xankəndi yolunun üstündə ekofəalların, QHT nümayəndələrinin, gənc vətənpərvərlərin dinc etiraz aksiyasına start verildi. Əgər dünyanın milli-azadlıq hərəkatlarının tarixinə nəzər yetirsək, bu aksiyanı işğalçılara qarşı dinc müqavimətin zirvəsini kəşf etmiş və bununla da Birləşmiş Krallıqdan istədiyini almağı bacarmış dahi Mahatma Qandi təcrübəsindən az da olsa bəhrələndiyimizi söyləyə bilərik. Belə humanist xarakterli etiraz üsullarından çox-çox uzaq olan daşnak separatçıları Azərbaycana qarşı əməlli-başlı “diplomatik savaş kampaniyası” açır, beynəlxalq məhkəmələrə müraciət ünvanlayır, xarici mediada ölkəmizə qarşı qara piar aparır, Qarabağda “etnik təmizləmə siyasəti həyata keçirilməsi”ni car çəkirdilər. Belə bağırtı, haray-həşirlə müşayiət olunan və bəzi xarici dairələrin züy tutduqları təzyiqlər Prezident İlham Əliyevi qətiyyətli mövqeyindən geri döndərə bilməzdi. Və Bakı öz haqqını israrla tələb etdi. Cənab Prezident yenə humanistlik nümunəsi göstərərək, Qarabağ ermənilərinə reinteqrasiya və mövcud problemlərin həlli ilə bağlı müraciət ünvanladı, onları Bakıya dəvət etdi. Amma Azərbaycanın xoşməramlı çağırışları cavabsız qaldı.

### Erməni əhalinin təhlükəsizliyinə təminat verilir

Azərbaycan Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsini yaratmaqla, yalnız revanşist-daşnakların növbəti təxribatlarının qarşısını almadı, eyni zamanda, özünün ərazi bütövlüyünü tam bərpa etdi, bölgənin dinc erməni əhalisinin təhlükəsizliyinə təminat veriləcəyini təsdiqlədi. Son səkkiz ayda Qarabağda cərəyan edən hadisələr, daşnakların şərti sərhəddə, gizli yollarda törətdiyi silahlı insidentlər Bakının qəti tədbirlərə əl atacağını zəruriləşir və bununla bağlı konkret çağırışlar səslənirdi.

Yeri gəlmişkən, Azərbaycan beynəlxalq müstəvidə antiterror koalisiyasının üzvüdür. Həm də bu səbəbdən sivil dünya bu məsələdə ölkəmizə mütləq dəstək nümayiş etdirməlidir. Ayrıca regionun təhlükəsizliyi baxımından da bunun alternativi yoxdur. Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə dövlət başçısı sadə şəkildə izah etmiş oldu ki, bu, qanunçuluğun təminatı, həm də antiterror fəaliyyətinin bir qoludur.

Əslində, Laçın yolunun üstündəki sərhəd postumuz elə şərti sərhədlə bağlı müzakirələrə, Hayastanın çeşidli dirənişlərə son nöqtəni, dəqiq desək, nida işarəsini qoymuş oldu. Necə ki, Prezident İlham Əliyev “Qarabağ Azərbaycandır və nida!”,- demişdi, indi də sərhəddə nəzarət-buraxılış məntəqəsi məsələsinə də eyni durğu işarəsini qoyduğunu söyləyə bilərik. Vəssalam!

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

# Volkov getdi, Lentsov gəldi... Nə dəyişəcək?

**Azərbaycanın Qarabağ bölgəsində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarına yeni komandan təyin edilib. General-mayor Andrey Volkov vəzifədən kənarlaşdırılıb və onu Rusiyanın müdafiə naziri Sergey Şoyqunun müşaviri, general-polkovnik Aleksandr Lentsov əvəz edib.**



Maraqlıdır, Andrey Volkovun yeni – daha ciddi kadrla əvəzlənməsi hansı zərurətdən irəli gəlib? Aleksandr Lentsovun komandan təyinatı sülhməramlıların fəaliyyətində hansı dəyişikliyə səbəb olacaq?

### “Biznesmen” Volkov və qanlı pullar

Andrey Volkovun Qarabağ bölgəsindəki Rusiya sülhməramlılarının komandanı olduğu dönəmdə bölgədə sülhün və sabitliyin bərqərar olmasına heç bir töhfə vermədiyi, əksinə, erməni separatçıları ilə əlbir olaraq Azərbaycanın sərvətlərinin talanmasında iştirak etdiyi məlumdur. Təsadüfi deyil ki, “Qızılbulaq” və “Dəmirli yataqlarının ermənilər tərəfindən qanunsuz istismarı məhz Volkovun komandanlığı dövründə daha da genişlənib. Bu isə Azərbaycan xalqının haqlı olaraq ciddi etirazına səbəb olub.

Volkovun qanunsuz erməni silahlı dəstələrini Azərbaycan torpaqlarından çıxarmalı olduğu halda, separatçılara açıq himayədarlıq etməsindən qəzəblənən azərbaycanlı ekofəallar, qeyri-hökumət təşkilatlarının nümayəndələri dəfələrlə onunla görüş tələb ediblər. Ancaq Volkov bu müddət ərzində bir dəfə də olsun üzə çıxmayıb, azərbaycanlıların haqlı suallarını cavablandırmağa cəsarəti çatmayıb. O, komandan vəzifəsindən azad olunduğu günə qədər separatçılarla həmrəylik nümayiş etdirib.

### Genişlənən mina terroru və müharibə hazırlığı

Ermənilərin mina terrorunu genişləndirməsi də Volkovun sülhməramlıların komandanı olduğu dönəmə təsadüf edir. Məhz bu dönəmdə separatçılar Azərbaycan ərazisində yüzlərlə yeni mina basdırıb, nəticədə həm mülki, həm də hərbçilər arasında tələfatlar yaşanıb.

Volkov həm də Ermənistandan Xankəndiyə qanunsuz hərbi birləşmələrin, o cümlədən, silah-sursatın daşınmasına göz yuman, bir çox hallarda isə məlum prosesin təhlükəsizliyini təmin edən şəxs kimi yadda qalıb. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəsmi məlumatlarına nəzər salsaq görərik ki, nazirlik dəfələrlə Ermənistandan Xankəndiyə yol alan və separatçılara məxsus olan hərbi karvanın Rusiya sülhməramlıları tərəfindən müşayiət edildiyini bildirib. Bu fakt bir daha sübut edir ki, Volkovun Qarabağ bölgəsindəki missiyası sülhdən və təhlükəsizlikdən çox uzaq olub. Bu baxımdan yeganə təsəlliverici məqam Azərbaycan tərəfinin israrlı və haqlı çağırışlarından sonra Volkovun tutduğu postdan kənarlaşdırılması, onun Aleksandr Lentsovla əvəzlənməsidir.

### Lentsov ümidləri doğruldacaqmı?

Aydındır ki, indiki məqamda Aleksandr Lentsovun Qarabağ bölgəsindəki sülhməramlıların komandanı vəzifəsinə gətirilməsinin hansısa dəyişikliklərə səbəb olacağı haqqında fikir səsləndirmək tezdir. Volkov kimi Lentsov da özü haqqında düşüncələri öz fəaliyyəti ilə formalaşdıracaq. Lakin istənilən halda Volkovun Aleksandr Lentsovla əvəzlənməsinin ümidverici dəyişiklik olduğu şübhəsizdir. Bu dəyişiklik, ilk növbədə, rəsmi Moskvanın Azərbaycanın etirazına ciddi yanaşdığını, onunla razılaşmağı zəruri saydığını göstərir.

İkincisi, Volkov hansısa ikinci dərəcəli, “növbətçi” generalla deyil, hərbçilər arasında böyük nüfuza sahib olan Rusiyanın Müdafiə nazirinin müşaviri Lentsovla əvəzlənib. Bu faktın özü Kremlin Qarabağdakı sülhyaratma missiyasına, Azərbaycanın bu missiya ilə bağlı gözləntilərinə ciddi yanaşdığını sübut edir.

Uzun müddət Müdafiə Nazirliyi sistemində yüksək vəzifələrdə çalışan Lentsov Volkovdan fərqli olaraq, şəxsi maraqlarının deyil, Rusiyanın hərbi nüfuzunun qeydinə qalıb. Bu isə ümid etməyə imkan verir ki, yeni komandan Rusiyanın, onun 2020-ci ilin 10 noyabr tarixində imzaladığı üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərin icrasına da məsuliyyətlə yanaşacaq, öz missiyasından kənara çıxmayacaq. Məhz belə olacağı təqdirdə Azərbaycan da Rusiya sülhməramlılarının, onların komandanın fəaliyyətini təqdir edəcək.

*Seymur ƏLİYEV*

# Sərhədimiz bütövdür...ermənilər isə yapışmağa saman çöpü axtarırlar

## Beynəlxalq reaksiyalar və erməni mediasında yazılanlar



**"Möhtərəm Prezident, cənab müzəffər Ali Baş Komandan, məruzə edirəm ki, Sizin tapşırığınıza əsasən, Azərbaycan-Ermənistan dövlət sərhədində, Həkəri çayının üzərindəki körpünün üstündə fəxarət rəmzimiz olan üçrəngli Dövlət bayrağımız dalğalanmaqdadır. Bununla da Vətən sərhədlərinin bütövlüyü təmin olunmuşdur. Yaşasın Azərbaycan, yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!" Bu fikirlər Azərbaycan Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının polkovniki, Vətən Müharibəsi Qəhrəmanı Babək Ələkbərovun sərhəd-buraxılış məntəqəsində bayrağın qaldırılması barədə Prezident İlham Əliyevə məruzəsindəndir.**

Söhbətimiz isə sözügedən məntəqənin qurulmasının həm Ermənistan ictimai rəyindəki, həm də ümumən Cənubi Qafqazda maraqlı olan qüvvələr tərəfindən müzakirəsi ilə bağlıdır. Bu baxımdan bir neçə məqama diqqət çəkmək və beləliklə ölkəmizə qarşı yönəlmiş təzyiqlərin miqyasını vurğulamaq niyyətindəyik. Hesab edirik ki, diqqətli oxucularımız ölkəmizin hansı qətiyyətli qərarı verdiyini də nəzərdən qaçırmayacaqlar. Onu da nəzərdən qaçırmayacaqlar ki, bu qərar polkovnik B.Ələkbərovun dövlətimizin başçısına məruzəsində bildirdiyi kimi, Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpası deməkdir.

***

Əvvəla, bildirək ki, dünən Rusiya Prezidenti Vladimir Putinin və Ermənistanın baş naziri Nikol Paşinyanın telefon danışığı zamanı regionda stabilliyin və təhlükəsizliyin təmin edilməsi üçün qarşıda duran məsələlərin həllinə diqqət yetirilib. Mövcud xüsusda Qarabağ ətrafında vəziyyət müzakirə olunub, həmçinin Laçın yolu kontekstində Rusiya, Ermənistan və Azərbaycan liderləri tərəfindən imzalanmış fundamental razılaşmaların bütün şərtlərinə ciddi əməl olunmasının vacibliyi bir daha öz təsdiqini tapıb.

***

Bu arada Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın da Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin (NBM) quraşdırılmasına münasibət bildirib. "Qarabağ Azərbaycandır!" deyən İ.Kalın əlavə edib ki, söhbət Azərbaycanın ərazi bütövlüyündən gedir və burada fərqli mənalar əlavə etmək prosesə töhfə verməyəcək. İbrahim bəy onu da bildirib ki, Xankəndi və onun ətrafında yaşayan ermənilərlə bağlı Azərbaycanın verdiyi bir çox təminatlar da ciddi qarşılanmalıdır: "Onların həyat və əmlakları ilə bağlı Azərbaycan bir təhlükəsizlik modeli təklif edib ki, biz bunu sülh prosesinin əsas sütunlarından hesab edirik".

***

Qeyd edək ki, Azərbaycanın Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsi qurması ilə bağlı məsələ Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Rusiyanın xarici işlər nazirinin müavini Mixail Qaluzinlə görüşündə də müzakirəyə çıxarılıb. Mirzoyan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq, Laçın yolunun rejimin bərpası istiqamətində Ermənistanın müttəfiqləri və tərəfdaşları tərəfindən müvafiq cavabın və təsirli addımların atılmasının zəruriliyini vurğulayıb.

***

Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrellin açıqlamasına diqqət yetirək. Borrell özünün "Twitter" səhifəsindəki paylaşımında bildirib ki, Qarabağda yaşayan ermənilərin hüquq və təhlükəsizliyinin təmin edilməsi vacibdir. "Azərbaycanın birtərəfli qaydada Laçın dəhlizi boyunca nəzarət-buraxılış məntəqəsi yaratması Aİ-nin gərginliyi azaltmaq və problemləri dialoq yolu ilə həll etmək çağırışlarına ziddir", - deyən ali nümayəndənin sözlərinə görə, təmsil olunduğu qurum Qafqazda sülhün və sabitliyin təşviqinə davam edəcək.

***

ABŞ Dövlət Departamenti Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsinin yaradılmasından bərk narahatdır. Bunu özünün ənənəvi brifinqində qurumun mətbuat katibinin müavini Vedant Patel deyib: "Bu, sülh prosesinə etimadın yaradılması səylərini sarsıdır və biz hesab edirik ki, Laçın dəhlizi ilə insanların və malların sərbəst və açıq hərəkəti olmalıdır. Baş məsləhətçi Bono, katibin köməkçisi Hoqan, dövlət katibi – biz bütün bunlarda iştirak edəcəyik".

***

Azərbaycan tərəfdən gərginliyin dərinləşməsi həyəcan doğurur. Bu barədə NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussen də özünün "Twitter" mikrobloqunda Azərbaycanın Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi yerləşdirməsini şərh edərkən yazıb. "Əgər Bakı beynəlxalq öhdəliklərinə və Beynəlxalq Ədalət Məhkəməsinin məcburi qərarlarına məhəl qoymamaqda davam edərsə, bunun siyasi və iqtisadi nəticələri olmalıdır", – deyə Rasmussen yazıb.

***

Bildirdiyimiz kimi, Azərbaycanın Laçın-Xankəndi yolunda sərhəd-nəzarət-buraxılış məntəqəsi qurması Ermənistan mediasının da gündəmini zəbt edib. Məsələn, "Hraparak" qəzeti yazır: Baxmayaraq ki, tezliklə bölgəni tərk etməlidir, amma aprelin 24-də Rusiya sülhməramlı kontingentinin komandanı, general-mayor Andrey Volkovun iştirakı ilə Laçın dəhlizində Həkəri körpüsünün açılması ilə bağlı danışıqlar davam etdirilib. Nəşrin bildirdiyinə görə, ruslar danışıqları ayrıca aparıblar. "Əksinə, dünən Azərbaycan Laçın dəhlizində "Diqqət, siz Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz" plakatını yerləşdirib" kimi fikirlərə yer verən "Hraparak" Rusiya sülhməramlılarının Azərbaycana maneçilik yaratmamasına diqqət çəkib.

Qəzet onu da vurğulayıb ki, Qarabağdakı separatçı rejim, ümumən, bölgənin erməni əhalisi azərbaycanlıların keçid məntəqəsi ideyasından əl çəkməyəcəyinə əmindir: "Rusların nail olmağa çalışacaqları yeganə şey odur ki, keçid məntəqəsində təkcə azərbaycanlılar deyil, həm də Rusiya sülhməramlıları yerləşdirilsin. Qeyd edək ki, rəsmi Bakı Laçında keçid məntəqəsinin yaradılmasının qanuniliyini, beynəlxalq hüquq normalarına uyğunluğunu, Ermənistanın Praqa və Soçidə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib".

***

Digər erməni qəzeti "Joqovurd" da həmin mövzuya yer ayırıb, ancaq bir qədər fərqli rakursdan. Qəzet yazıb ki, İrəvan şəhər rəhbərliyinə qarşıdan gələn sentyabr seçkiləri ərəfəsində hakim "Vətəndaş sazişi" bloku seçkiqabağı həyəcan içərisindədir. Seçkilərə hələ dörd ay qalsa da, blok öz namizədi Tiqran Avinyanın seçki kampaniyasına köklənib və indiki halda Ermənistanın və Qarabağın üzləşdiyi ən ciddi təhlükəsizlik problemləri arxa plana keçib. Bir qədər təfsilatı ilə yanaşsaq, "Vətəndaş sazişi"nin üzvləri İrəvanda öz hakimiyyətini saxlamaq məsələsi ilə məşğuldurlar və bunun üçün bütün resurslardan istifadə edilir. "Quruma yaxın mənbələrin sözlərinə görə, baş nazir Nikol Paşinyan təşkilati işlərdə, kifayət qədər, fəal iştirak edir və prosesi şəxsən əlaqələndirir. Yeri gəlmişkən, "Vətəndaş sazişi"ndəkilər, qələbələrinə, demək olar 100 faiz əmindirlər, hazırda daha çox sarsıdıcı qələbənin təmin edilməsi istiqamətində işlər aparılır", - deyə "Joqovurd" duruma aydınlıq gətirməyə çalışıb.

***

"Qolos Armenii" qəzeti isə materialında Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyevin fikirləri yer alıb. Qəzet daimi nümayəndəmizin İrəvan qarşısında qoyduğu səkkiz tələbi xatırladıb və onları münasibətlərin tam normallaşması üçün şərt adlandırıb. Y.Əliyevin fikirlərinə ultimatum kimi yanaşan nəşr mövcud xüsusda Ermənistanın üzərinə beynəlxalq öhdəliklərə əməl etmək, öz silahlı qüvvələrini və qanunsuz silahlı birləşmələrini Azərbaycan ərazisindən, tamamilə, çıxartmaq, Azərbaycanın hələ də işğal altında olan səkkiz sərhəd kəndini qaytarmaq, ərazi iddialarını, qanunsuz fəaliyyətləri və dezinformasiyaları dayandırmaq və ondan çəkinmək, mina terroruna son qoymaq, münaqişə zamanı itkin düşmüş bir neçə min azərbaycanlının taleyinə aydınlıq gətirmək, Azərbaycana dəymiş ziyanı ödəmək, sülh müqaviləsinin bağlanması və iki dövlət arasında sərhədin delimitasiyası üzrə xoş niyyətlə danışıqlar aparmaq tələblərinin qoyulduğunu xatırladıb.

***

Sonda onu da bildirək ki, reaksiyaların necəliyindən asılı olmayaraq, Azərbaycan öz mövqeyində qətidir. Ermənipərəst fikirlərə gəldikdə isə onlar suveren Azərbaycan ərazisi olan Qarabağdakı separatçılığın son çırpıntılarından başqa bir şey deyil. Həm diqqətə çatdırdıqlarımız, həm də digər anti-Azərbaycan ritorikasına əsaslanmış fikirlər onu da göstərir ki, erməni separatizmi sanki, saman çöpündən yapışıb. Əlbəttə, bu yapışma onu ümmansız dəryada boğulmaqdan xilas edə bilməyəcəkdir.

*Ə.RÜSTƏMOV,*
*"Xalq qəzeti"*

# Bakının "kəskin addım"ı Rusiya mediasında anlayışla qarşılanıb

**Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən aprelin 23-də ölkəmizin suveren ərazisində, Ermənistanla sərhəddə – Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılması ciddi beynəlxalq rezonans doğurub. Bu addımın atılması Azərbaycanın bədxahlarının narahatlığı ilə qarşılanıb. Ölkəmizin uğuruna sevinənlər isə bunu Azərbaycanın öz sərhədlərinə sahib çıxması, suverenliyini bütün ərazilərində bərqərar etməsinin təntənəsi kimi dəyərləndiriblər. Region dövlətləri kimi onların media subyektləri də olaya ciddi reaksiya veriblər.**




Onlardan daha çox maraq doğuranı Rusiyanın nüfuzlu "Kommersant" qəzetində dərc olunmuş məqalədir. Öncə onu qeyd edək ki, məqaləyə maraqlı sərlövhə seçilib. Rus dilində "Ermənistan fakt qarşısında qoyuldu" sərlövhəli məqalə diqqəti cəlb edir. Qeyd edilir ki, Bakı Qarabağ məsələsinin öz xeyrinə yekun həlli istiqamətində kəskin addım atıb: "Bakının Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin yaratması o deməkdir ki, Azərbaycan hərbçiləri hazırda logistikaya tam nəzarət edirlər. İrəvan buna əsəbləşməkdən başqa, ortaya nəsə qoya bilmir. Rusiya isə tərəflər arasında dialoqun zəruriliyindən danışmağa üstünlük verir ki, bu da Azərbaycanın güclü mövqeyindən çıxış edir".

Bildirilir ki, Laçın yolu 2020-ci il müharibəsindən sonra hələ də Bakının nəzarətində olmayan kiçik ərazini Ermənistanla birləşdirən yeganə yoldur: "Azərbaycan Qarabağ məsələsini həll olunmuş hesab edir. Bakının nöqteyi-nəzərindən detalları – Azərbaycan ərazisində yaşayan erməni əhalinin hüquqları məsələsini həll etmək lazımdır. Bu, Azərbaycan tərəfinin 2020-ci il müharibəsində tam qələbəyə yaxınlaşdıran enerjili addımlar atmasına mane olmur. Qarabağ üzərində tam nəzarət yaratmaq isə müharibədə mütləq qələbə qazanılması deməkdir".

Məqalədə sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılmasına Ermənistan XİN-in qəzəbli reaksiya verdiyi bildirilir, ABŞ Dövlət Departamentinin və Fransanın xarici siyasət idarəsinin mövqeyini açıqladığı qeyd olunur. Lakin bu açıqlamaların Bakıya xüsusi təsir etmədiyi vurğulanır. Qəzet yazır ki, Azərbaycan tərəfi öz hərəkətlərini qanuni adlandırıb. "Azərbaycanın Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratmaq qərarı qanunidir və beynəlxalq hüququn bütün normalarına uyğundur. Üstəlik, Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Buna əsaslanaraq, Ermənistan Azərbaycanın öz ərazisinə giriş-çıxışa nəzarət etmək hüququna hörmət etməli və onu qəbul etməlidir", – deyə Azərbaycan XİN-dən bildirilib. Eyni zamanda, Azərbaycan Ermənistanı yoldan qanunsuz olaraq silah və sursat daşınmasında, eləcə də Ermənistan hərbçilərinin Qarabağda rotasiyası üçün istifadə etməkdə ittiham edib. Orada "etnik təmizləmə" hazırlamaq ittihamları absurd adlandırılıb.

Yazıda Ermənistanın baş naziri Nikol Paşinyanın sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı indiyədək açıqlama vermədiyi vurğulanıb. Bu isə Ermənistan daxilində ayrıca qıcıqlanmaya səbəb olub. Müxalifət yaranmış vəziyyətə görə ölkə rəhbərliyini təqsirkar adlandırıb. Parlamentdəki "Şərəfim var" müxalifət fraksiyasından olan deputat Tiqran Abramyan "Kommersant"a müsahibəsində hər şeydə birmənalı olaraq Ermənistan rəhbərliyini suçlayıb: "Paşinyan keçən həftə sadə, anlaşılan dildə Azərbaycana "yaşıl işıq" yandırdı. O, faktiki olaraq yalnız Ermənistana aid məsələlərə cavabdeh olduğunu deyir. Buna görə də Bakı əməliyyatın Azərbaycanın suveren ərazisində həyata keçirildiyini vurğulayır. Ermənistanın hakim rejimi üçün də bura Azərbaycandır".

Qəzetin Rusiyanın adı açıqlanmayan, regiondakı vəziyyətlə tanış olan dövlət qurumundakı həmsöhbəti orada cərəyan edən hadisələrin inkişafını mahiyyətcə qanunauyğun adlandırıb. Onun sözlərinə görə, Bakı 2020-ci ilin noyabrında üçtərəfli Bəyanatın imzalanmasından bəri Ermənistan və Azərbaycan arasında sərhədlərin delimitasiyası məsələsinin, o cümlədən kommunikasiyaların (ölkənin Qərb rayonları ilə Naxçıvan arasında əlaqə yaradılması kimi fundamental aspekt daxil olmaqla) açılmamasından narazıdır: "Azərbaycanın geri çəkilməyəcəyi aydın idi. Bakı sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı məsələni uzun müddət qaldırıb, razılaşma əldə etmək istəyib. Hər dəfə mövzu müzakirədən çıxarılırdı. Nəticədə, onlar sadəcə olaraq, fakt qarşısında qoyduqları məsələyə getdilər".

Qəzetin gəldiyi yekun nəticə bundan ibarətdir ki, sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı vəziyyət Azərbaycanın öz maraqlarını güc yolu ilə həyata keçirməyə qadir olduğunun sübutudur: "İrəvanın beynəlxalq ictimaiyyətə bəyanat və müraciətlər ünvanlamaqdan başqa Azərbaycana cavab verəcək heç nəyi yoxdur. Böyük oyunçuların isə vəziyyətlə bağlı narahatlıqları ritual ifadələrlə məhdudlaşır".

Göründüyü kimi, Azərbaycanın Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi yaratmaqla bağlı atdığı addım Rusiya mediasında da anlayışla qarşılanıb. Bu mövqe ölkəmizin beynəlxalq mövqelərinin güclənməsinin, Azərbaycan həqiqətlərinin təsdiqini tapmasının növbəti sübutudur. Bununla rəsmi Bakının illərlə apardığı informasiya-təbliğat işinin də nəticə verdiyini deyə bilərik. Rusiyanın nüfuzlu qəzetində belə bir məqalənin dərc olunması göstərir ki, Ermənistan üzərində mövqeyimiz hərbi-siyasi, iqtisadi nöqteyi-nəzərdən olduğu kimi, informasiya-təbliğat baxımından da kifayət qədər güclüdür.

*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

### Ekspert rəyi

**İlyas HÜSEYNOV,**
**politoloq**



– Azərbaycanın Laçın-Xankəndi yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi yaratması, ölkəmizin Vətən müharibəsindən sonra qazandığı diplomatik, strateji üstünlüklər sırasındadır. Bununla müqayisə oluna biləcək digər hadisə Ermənistanın Azərbaycanın suverenliyini Praqa, eləcə də Soçi görüşündə tanımasıdır. Gözlənilirdi ki, Rusiya məntəqənin yaradılmasına açıq yanaşmayacaq, hətta onu dəstəkləməyəcək. Hətta Sergey Lavrovun Bakıya səfəri çərçivəsində də bu məsələyə diqqət ayrılmış və müəyyən xəbərdarlıqlar edilmişdi. Lakin Azərbycan məhz təhlükəsizlik aspektlərini nəzərə alaraq, sərhəd nəzarət-buraxılış məntəqəsini formalaşdırdı. Bu addım Qarabağdakı etnik erməni əhalinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının bir mərhələsi kimi də qiymətləndirilə bilər.

Azərbaycanın qətiyyəti, siyasi iradəsi, prinsipiallığı da ortadadır. Bu, həm də regionda sülhə xidmət edən amil kimi qarşılanmalıdır. Digər tərəfdən, sərhəd nəzarət-buraxılış məntəqəsinin yaradılması etnik ermənilərin infrastruktur, humanitar, inteqrasiya problemlərinin həlli üçün çox önəmli alətə çevrilə bilər. Bu addım heç bir vəchlə regionda gərginliyi artırmaq, birgə bəyanatın tələblərinə əməl etməmək və Azərbaycanın birtərəfli qaydada güc tətbiq etməklə reallığı dəyişmək istəyi kimi interpretasiya oluna bilməz.



# Milli sözün böyük dostu və unudulmaz himayədarı

**Ümummilli lider, dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev Azərbaycana bir qərinəlik rəhbərliyi dövründə kütləyə ünvanlanan sözə, sözə ictimai dəyər verən yaradıcı adamlara rəğbəti, ehtiramı və diqqəti ilə daha bir mükəmməl lider örnəyi yaradıb. Ulu öndər Azərbaycanın tərəqqisinə, tanıdılmasına xidmət edən sözü milli tribunadan xalqa və dünyaya xitab kimi dəyərləndirirdi. Bunu mən də bir jurnalist olaraq əyani müşahidə eləmişəm və ulu öndərin səfər və görüşlərindən aldığım təəssüratı bu gün də qəlbimdə heç zaman silinməyəcək duyğular kimi yaşatmaqdayam.**

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk vaxtlardan ölkənin sosial-iqtisadi və mədəni inkişafı ilə bağlı sovetlər birliyində heç vaxt görünməmiş, müşahidə edilməmiş islahatlara start vermişdi. Azərbaycan aqrar ölkədən elmin, sənayenin, mədəniyyət və incəsənətin əsil sıçrayış dövrünə qədəm qoymuşdu. Pambıqçılıq, üzümçülük, baramaçılıq və digər kənd təsərrüfatı sahələrinin inkişafı İttifaq göstəricilərini xeyli qabaqlamış, əhalinin sosial rifahı, dolanışıq tərzi digər respublikalarda olduğundan xeyli fərqlənməyə başlamışdı.

Bütün bunlar isə Heydər Əliyevin rəhbərlik məharətinin, idarəçilik metodlarını işlək vəziyyətə gətirmək bacarığının məntiqi nəticəsi idi. O, vaxtaşırı Azərbaycanın sıravi əmək adamları, mütəxəssisləri, təsərrüfat və partiya – sovet rəhbərləri ilə görüşür, yerlərdə görülən işlərlə əyani tanış olur, məsləhət və tövsiyələrini verirdi. Ötən əsrin 70-ci illərinin ifadəsi ilə desək, regionlarda keçirilən zona müşavirələrində Azərbaycan Dövlət Teleradiosunun gənc reportyoru kimi iştirak etdiyim günləri indi də əziz xatirə kimi ürəyimdə yaşadıram.

Bu müşavirələr bəzən gecə yarısınadək uzanırdı, amma vaxtın necə keçməsini ölkə rəhbəri də, iştirakçılar və biz jurnalistlər də qətiyyən hiss eləmirdik. Heydər Əliyev ölkənin taleyüklü problemlərindən elə canıyananlıqla, ustalıqla, səriştəli tərzdə danışırdı, saysız-hesabsız fakt və rəqəmləri müqayisəli şəkildə elə çatdırırdı ki, onun yaddaşına, sadə, anlaşıqlı, amma güclü məntiqlə süslənmiş nitqinə heyran olmaya bilmirdik. O, adi kolxozçunu da, raykom katibini və naziri də diqqətlə dinləyir, sorğu-suala çəkirdi və axırda bəlkə də heç kimin görmədiyi məqamları elə həssaslıqla diqqətə çatdırırdı ki, sonradan heç bir müzakirəyə yer qalmırdı.

O vaxtların çəkiliş texnologiyaları, təbii ki, indiki kimi yüksək səviyyəli deyildi və televiziya operatorları bəzən olduqca çətin situasiyalarla üzləşməli olurdular. Heydər Əliyev belə məqamlarda, xüsusən də operatorların çəkilib dolmuş kassetləri dəyişdiyi zaman öz nitqində məzmunca elə məharətli dəyişmələr edirdi ki, sonradan rejissor və redaktorlar çıxışı efirə hazırlamaqda əziyyət çəkməsinlər. Lakin bunu salonda oturanlar qətiyyən hiss eləmirdilər, belə “protokoldankənar” anlaşmalar böyük, uzaqgörən kişinin sözə, sənətə, jurnalistikaya olan etibarından, dost münasibətindən qaynaqlanırdı. Onun müşahidə radiusundan heç nəyin heç zaman kənarda qalmadığını biz jurnalistlər yaxşı bilirdik.

Heydər Əliyev çiynində kamera gəzdirən, əlində mikrafon və bloknot olan insanlara əsl dost, dövrün salnaməsini yaradan insanlar kimi yanaşır, tədbirlərdən sonra düzənlənən çay süfrəsində onları bir qayda olaraq lap yaxınlığında əyləşdirərdi. 1980-ci ilin aprelində Heydər Əliyev Azərbaycanın bir qrup yaradıcı ziyalısını və qələm adamlarını da özü ilə Naxçıvan Muxtar Respublikasına səfərə aparmışdı. Azərbaycan Teleradiosundan gedənlər arasında əslən naxçıvanlı olan Hidayət Səfərli və bu sətirlərin müəllifi də vardı. Səfərimiz dörd gün çəkdi. Bu müddətdə Heydər Əliyev və onu müşayiət edən şəxslər muxtar respublikanın bütün rayonlarında oldular.

Şahbuzda, Batabatda və EA-nın Rəsədxanasında səmimi görüşlər keçirildi. Heydər Əliyevi gül-çiçəklə, duz-çörəklə qarşılayan naxçıvanlılar onun gəlişindən sonra bu diyarın daha da abadlaşacağına, çiçəklənəcəyinə ümidvar olduqlarını dilə gətirirdilər. Ordubadlı gənc qızın öz nişanlısı üçün minik maşını barədə xahişini Heydər Əliyev olduqca səmimi qarşılamış, əlavə olaraq öz adından bu sadə və dilavər qıza cehizlik mebel ayrılmasına da göstəriş vermişdi. Bəlkə də bu, indi kimin üçünsə adi görünə bilər, amma Azərbaycan rəhbərinin, Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizədin bu cür mehribanlığı və ülfəti o vaxtların yaddaqalan hadisələrindən biri idi.

Naxçıvan səfəri barədə televiziya və radio reportajlarını diqqətlə izləyən və dinləyən Heydər Əliyev elə ertəsi gün öz fikrini və qənaətini çatdırır, təşəkkürünü bildirirdi. Tənqidi qeydlərinə növbəti reportajımızda necə əməl etməyimizi də xüsusi vurğulayırdı. Onun mülahizə və təklifləri hər birimizin “qulağında bir sırğa” rolunu oynayırdı. Elə şəxsən mənim jurnalistlik fəaliyyətimdə ulu öndərin tövsiyələri sanki bir məhək daşına çevrilmişdi.

Heydər Əliyev ikinci dəfə Azərbaycanda hakimiyyətə gələndən sonra da bu böyük şəxsiyyətin keçirdiyi görüşlərdə, mətbuat konfranslarında AzTV-nin əməkdaşı kimi iştirak etmiş, ondan müsahibələr almışam. Maraqlı və sevindirici hal o idi ki, uzun illərdən sonra da vaxtilə onun tədbirlərini işiqlandıran hər kəsi tanıyır, salamlaşır, əhvalımızı soruşurdu. Bir-bir hamımızla görüşür, əllərimizi ata nəvazişi ilə sıxırdı. Bu cür yanaşma, belə təmas isə köksündə özü boyda ürək gəzdirən böyük şəxsiyyətlərə xas olan əlamətdir.

Hələ ötən əsrin 70-ci illərində tələbə ikən yolumuz Qarabağa düşəndə mütləq Şuşaya da qalxardıq. Azərbaycanın fəxri sayılan söz-sənət adamları ilə Cıdır düzündə yarımca saatlıq gəzinti, İsa bulağının başında samovar çayı içməyimiz, Üzeyir bəyin, Bülbülün ev muzeylərinə, Cümə Məscidinə baş çəkməyimiz bizi nə qədər də zənginləşdirərdi. Dəfələrlə Azərbaycanın tanınmış ziyalıları, o zamanın söz-sənət xiridarları Xudu Məmmədovun, Şahmar Əkbərzadənin, Zeynal Məmmədovun dəvəti ilə Şuşanı qarış-qarış gəzmiş, dolaşmış, amma doymamışdıq, yorulmamışdıq.

...1982-ci il yanvar ayının 14-də Molla Pənah Vaqifin məqbərəsinin açılış mərasimində iştirak etmək üçün Şuşaya gedən media nümayəndələri sırasına telejurnalist kimi düşmək lap ürəyimdən idi. AzTV-nin çəkiliş qrupunda iki kinooperator vardı: Rüstəm Zülalov ve Sergey İşxanov. Xankəndidə qatardan düşəndə ermənilərin Sergeyi duz-buz kimi "yalamaları" indi də gözümün qabağındadır. Bizimlə isə candərdi görüşdülər. Bir-iki saatı bu şəhərdə necə keçirdiyimizi təsəvvür etməzsiniz. Sanki, Azərbaycandan minlərlə kilometr uzaqlarda, düşmənlər arasında idik.

Ermənilərin buz kimi donuq sifətləri qəlbimizi üşüdürdü. Şuşada isə əhvalımız tamam dəyişdi. Şəhər sakinləri, rayon rəhbərləri bizi doğmaları, əzizləri kimi bağırlarına basdılar, "xoş gəldin" elədilər. Sergeylə də yaxın adamları kimi görüşdülər, hal-əhval tutdular. Qəribəsi bu idi ki, operatorumuz burada ozünü sudan çıxmış balıq kimi hiss edirdi. Gözləri yol çəkir, özünü qəribə aparırdı. Əlbəttə, "Miatsum"a hələ altı il qalsa da, azacıq müşahidə ermənilərin içindən üzünə vuran hissləri duymağa imkan verirdi.

Şuşaya əvvəlcədən gələn qonaqlar, jurnalistlər, dövlət məmurları Azərbaycanın rəhbəri Heydər Əliyevi Molla Pənah Vaqifin məqbərəsinin açılış mərasimində böyük sevinclə qarşıladılar. Qarlı-şaxtalı gün olsa da, hamının üzündə bir sevinc, nur, qəlbində hərarət vardı. Paytaxtdan gələn adlı-sanlı qələm sahibləri, Şuşa camaatı, televiziya və qəzet müxbirləri xalqın böyük oğlunu səmimiyyətlə, qayğı ilə əhatələmişdilər. Heydər Əliyev mərasimdə geniş nitq söylədi, Vaqif yaradıcılığını, fəaliyyət göstərdiyi dövrü ətraflı təhlil etdi, şairin misralarını əzbər söylədi.

Məqbərənin açılış mərasimindən sonra Şuşadakı doqquzmərtəbəli mehmanxananın restoranında böyük ziyafət verildi. Heydər Əliyev adəti üzrə jurnalistləri lap yaxınlığında əyləşdirmisdi. Dediklərini tam aydınlığı və dəqiqliyi ilə eşidirdik. Dağlıq Qarabağın rəhbəri Boris Kevorkova tutduğu iradlar da yaxşı yadımdadır. Heydər Əliyev onu Xankəndidə rastlaşdığı erməni dilində yazılmış lövhə və reklamlara, hətta məclisdə gördüyü mineral suların, içki şüşələrinin üstündəki yazılara görə əməlli-başlı məzəmmət etdi. Bildirdi ki, bu yazılar, ilk növbədə, dövlət dili olan Azərbaycan dilində yazılmalıdır. Yəqin ki, böyük şəxsiyyətin qarşısında Borisin hansı hisslər keçirdiyini, necə utanıb-qızardığını təsəvvür etmək o qədər də çətin deyil.

Şuşa səfərimiz Vaqifin məqbərəsinin açılışı barədə telereportaj hazırlamaqla məhdudlaşmamışdı. İki gün də əlavə bu şəhərdə qalmış, müxtəlif mövzulu materiallar işləmişdik. O illərdə dövlət televiziyasının Dağlıq Qarabağ üzrə təmsilçisi olan Raqub Mustafayev bu işdə bizə yaxından kömək göstərmişdi. Raqub müəllim bizi Şuşanın tarix-mədəniyyət abidələrinə, sənaye müəssisələrinə, təhsil ocaqlarına aparmış, nüfuzlu simalarla tanış etmiş, maraqlı videosüjetlərin hazırlanmasına şərait yaratmışdı. Onu da deyim ki, Sergey İşxanov "xəstəliyi" ucbatından bizi vaxtından əvvəl tərk etmiş, Xankəndiyə, sonra da Bakıya yola düşmüşdü.

Lap sonralar iş elə gətirdi ki, mən 2021-ci il avqustun axırlarında Vaqifin məqbərəsinin Heydər Əliyev Fondunun dəstəyi ilə bərpasından sonra açılış mərasiminə dəvət aldım – bu dəfə ulu öndərin layiqli davamçısı olan cənab İlham Əliyevin bu mərasimdəki nitqini əyani dinləmək mənə də qismət oldu. Təbii ki, bir ömür çərçivəsində bu cür təsadüflərin doğurduğu izaholunmaz duyğuları yaşamağın ayrı cür hüsnü var.

Ulu öndərimizlə bağlı xatirələrin işığında yaşamaq və istisinə qızınmaq isə əsl xoşbəxtlikdir.

***Akif CABBARLI,***
***yazıçı-publisist,***
***Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının redaktoru***

# Daşkənddə “Heydər Əliyevin qələbəsi” kitabının təqdimatı keçirilib

**Azərbaycanın Özbəkistandakı səfirliyinin təşəbbüsü ilə ölkənin tanınmış yazıçısı və publisisti İsmat Kuçiyevin rus dilində çap olunan “Heydər Əliyevin qələbəsi” kitabının Daşkənddə təqdimat mərasimi keçirilib.**

Tədbir iştirakçıları öncə ümummilli lider Heydər Əliyevin Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) qarşısındakı abidəsi önünə tər gül-çiçək dəstələri qoyublar.

Özbəkistan Yazıçılar İttifaqında davam edən tədbirdə ölkəmizin Özbəkistandakı səfiri Hüseyn Quliyev, səfirliyin əməkdaşları, ölkənin elm, mədəniyyət və incəsənət xadimləri, şair və yazıçılar, jurnalistlər, tələbələr iştirak ediblər.

Hüseyn Quliyev Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətlərindən danışıb və onun dövlətçiliyimizin çətin məqamlarında xalqın tələbi ilə hakimiyyətə gələrək müstəqilliyimizi xilas etdiyini bildirib. Səfir Azərbaycan xalqının öz böyük oğlunun xatirəsini daim əziz tutduğunu və ulu öndərin siyasətinin bu gün də uğurla davam etdiyini vurğulayıb.

Alim və tərcüməçi Babaxan Məhəmməd Şərif Heydər Əliyevin hələ SSRİ dövründə Azərbaycana rəhbərlik etdiyi zamanda ölkə iqtisadiyyatına, milli və mənəvi dəyərlərə, adət-ənənələrə verdiyi önəmdən söz açıb, müasir Azərbaycanın indiki vəziyyətə gəlib çatmasında böyük rolunun olduğunu deyib.



Tədbir iştirakçıları Özbəkistan Yazıçılar İttifaqı binasının foyesində Heydər Əliyevə həsr olunan kitablardan və AMM-nin nəşrlərindən ibarət sərgi ilə tanış olublar. Sonra Azərbaycan-Özbəkistan dostluğuna həsr olunmuş qısametrajlı videçarx nümayiş etdirilib.

“Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinovun moderatorluğu ilə davam edən tədbirdə çıxış edən Özbəkistan Yazıçılar İttifaqının sədri, Xalq şairi Siracəddin Səyyid Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpasında, gücləndirilməsində və dövlətçiliyin qorunub saxlanmasındakı rolunu, təzyiqlərə baxmayaraq milli ruhun, milli şüurun və özünüdərkin dirçəldilməsində, müstəqil Azərbaycanın beynəlxalq aləmdə layiqli yerini tutması istiqamətində müstəsna xidmətlərini diqqətə çatdırıb. O, ulu öndərin ədəbiyyata, sənətə böyük qiymət verdiyini qeyd edərək daim ədəbiyyat adamlarına qayğı göstərdiyini vurğulayıb.

“Özbəkistan-Azərbaycan” Dostluq Cəmiyyətinin üzvü İsrail Şamsimuxammedov, jurnalist Boris Babayev, Özbəkistan Yazıçılar İttifaqının üzvü Sabir Kurbanov və başqaları Heydər Əliyevi dünya şöhrətli siyasi xadim kimi xarakterizə ediblər.




Kitabın müəllifi İsmat Kuçiyev Heydər Əliyevin müasir Azərbaycanın qurucusu olduğunu vurğulayaraq, onun gördüyü əvəzolunmaz işlərdən danışıb. O, 1990-cı illərdə Azərbaycanın keçdiyi çətin zamanlardan söhbət açaraq, məhz Heydər Əliyevin sayəsində ölkədə sabitlik və inkişafın əldə olunduğunu bildirib.

***Qulu KƏNGƏRLİ***

**Daşkənd**

# Açıq havada “oxu günü”



**Lənkəran şəhər Heydər Əliyev adına Mərkəzi Parkda açıq havada “Oxu günü” təşkil olunub.**

“Heydər Əliyev İli” çərçivəsində baş tutan tədbir Lənkəran Şəhər İcra Hakimiyyətinin dəstəyi, Lənkəran–Astara Regional Təhsil İdarəsi, Lənkəran Regional Mədəniyyət İdarəsi və Lənkəran Dövlət Peşə Təhsil Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib. “Açıq kitabxana” adlı "Oxu günü"nün keçirilməsi uşaq və gənclərin elmə, təhsilə və kitaba olan marağının artırılması və dünyagörüşünün inkişaf etdirilməsi məqsədini daşıyıb.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovun da iştirak etdiyi sərgidə Lənkəran rayonu üzrə bir sıra orta məktəblərin şagirdləri ümummilli liderə həsr olunan şeirlər səsləndirib, dahi şair və yazıçılarımızın məşhur əsərlərindəki obrazları canlandırıblar.

***Ə.ƏLİYEV, “Xalq qəzeti”***

*Baxış bucağı*

# Kolonnanı Cənubi Qafqaza nə bağlayır?

## *Fransa baş diplomatının regiona səfəri ilə bağlı düşüncələr*

**Dünəndən Fransanın Xarici işlər naziri Katrin Kolonnanın Cənubi Qafqazın üç ölkəsinə səfəri başlayıb. Səfərin hansı məqsədlə gerçəkləşdiyinə nəzər salacaq, təhlillər aparacaq, reallıqlardan söz açacaq və ehtimallar üzərində dayanaraq, müəyyən nəticələrə gəlməyə çalışacağıq.**



Başlayaq Gürcüstandan. Burada Fransanın tutacaq yeri 2008-ci ilə dayanır. Belə ki, həmin ilin avqustunda Rusiyanın Gürcüstana hərbi müdaxiləsi baş vermişdi. Ayın 13-də isə Medvedev-Sarkozi (Rusiyanın və Fransanın o zamankı dövlət başçıları) razılaşmasından, yəni faktiki olaraq, "Beş günlük müharibə"nin dayandırılmasından, Gürcüstanın işğalının durdurulmasından sonra Tbilisinin siyasi elitasında Parisə xüsusi münasibət olub. Görünür, Yelisey sarayı həmin münasibəti də regional müstəvidəki söz sahibliyi statusunda təsəvvürə gətirir. Hərçənd, 2008-ci ildən xeyli müddət keçib, çox şey dəyişib. Elə Fransanın beynəlxalq imici də xeyli aşınmaya məruz qalıb. Digər tərəfdən, bir aşkar reallıq da var ki, Gürcüstan Qərbin hər zamankı maraq dairəsindədir və bu maraqlarda ənənəvi üstünlük Avropaya deyil, daha çox ABŞ-a məxsusdur.

Təbii, indiki məqamda Gürcüstanın xarici siyasətinin Qərbyönümlü vektorunun ciddi şəkildə yenidən nəzərdən keçirildiyi amilini də vurğulamalıyıq. Fransaya bu vektorda ziddiyyətləri dərinləşdirmək planlarının olmadığına əminlik vacibdir. Başqa bir yandan, Aİ-də liderliyə iddialı olan bir ölkənin Tbilisini Qərbyönümlü orbitdə saxlamaq üçün öz resurslarını göstərməsi də son dərəcə önəmlidir. Əks halda, o resursları, məsələn, Birləşmiş Ştatlar göstərə bilər.

Qalır Azərbaycan və Ermənistan. Bəri başdan deyək ki, son dövrlərin siyasi leksikonunda Fransa-Ermənistan "bacılığı" deyilən bir ifadə yer almaqdadır. Güman edirik ki, bunun özü hər şeyi deyir, mövcud xüsusda əlavə şərhə ehtiyac yoxdur. Bilavasitə, Kolonnanın səfərinin məqsədinə gəlincə, münaqişəli durumda olan ölkələrlə, yəni Azərbaycan və Ermənistanla birbaşa təmasın aparılacağı açıqlanır. Hər halda, Fransanın Xarici İşlər Nazirliyinin rəsmi saytında belə deyilir. Bildirilir ki, səfər Azərbaycan və Ermənistan arasındakı münaqişənin sülh yolu ilə həllinə nail olmaq, danışıqlara dəstək vermək məramına söykənir. Haşiyə çıxaq ki, Gürcüstanda islahatlar prosesini təşviq etmək kimi, niyyət də vurğulanmaqdadır.

Sual yaranır: Fransa hazırkı dövrdə Azərbaycan və Ermənistan arasındakı nizamlama prosesinə nə dərəcədə dəstək ola bilər və ya ola bilərmi? Axı ölkə özünün, belə demək mümkünsə, ədalətli hakim imicini çoxdan xərcləyib və Ermənistanla bağlı hər situasiyada bir qədər də xərcləməkdədir. Söhbət, bilavasitə, danışıqlar prosesindən gedirsə, ötən ilin oktyabrında ona ən sarsıdıcı zərbəni, məhz, Fransa vurmuşdu.

Bəli, ölkə prezidenti Emmanuel Makron Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə artıq ənənə halını almış və müsbət perspektiv vəd edən görüşlərindən birinə – Praqa sammitinə qoşulmuş, üzərindən heç həftə keçməmiş Azərbaycanı işğalçılıqda, Rusiyanı müttəfiqi Ermənistanın maraq və mənafelərini satmaqda günahlandırmışdı. Ondan sonra baş verənlər də məlumdur. Fransa Şarl Mişelin missiyasını, faktiki olaraq, iflasa uğratdı. Bu baxımdan Aİ-nin, tərkibində fransız jandarmlarının da olduğu, mülki missiyasının Azərbaycan-Ermənistan sərhədinin Ermənistan tərəfinə gətirilməsi, İrəvana açıq dəstək ifadə edən bəyanatlar və sair məqamlar da vurğulanmalıdır. Beləcə məlum oldu ki, Paris Aİ-ni öz avantürasının alətinə çevirib.

Ən sonuncu iki fakt da ortadadır – Fransanın Xarici İşlər Nazirliyi Ermənistanın aprelin 11-də törətdiyi təxribatı Bakını üstünə atan bəyanatla çıxış etdi və bu, azmış kimi, bir neçə gün öncə ölkəmizin Laçın-Xankəndi yolundakı şərti sərhəddə nəzarət-buraxılış məntəqəsi qurmasını da pislədi. Belədə sual olunur: Kolonna bölgəyə hansı üzlə gəlir? Onun səfəri nə kimi məqsəd daşıyır? Ümumən, Parisin Qafqazın problemlərini həll etmək üçün hansısa əlavə resursları varmı? Resursdan söz düşmüşkən, nəzərə alaq ki, Fransanın da bir vaxtlar təmsil olunduğu ATƏT-in Minsk qrupu artıq yox kimi bir şeydir.

Əlbəttə, Paris Azərbaycan-Ermənistan nizamlanmasında özünü əsas oyunçulardan biri kimi təqdim etməkdə israrlıdır. Bu israrlılıq isə həm də Rusiyanın Cənubi Qafqaz regionundan sıxışdırılması məramını güdür. Dünyanın Ukrayna müharibəsi müstəvisində Rusiyaya qarşı əks cəbhə aldığı hazırkı dövrdə Paris həmin cəbhənin, belə demək mümkünsə, Qafqaz səngərinə komandanlıq etdiyini və bununla da dünyaya özünün bəşəri missiya yerinə yetirdiyini göstərməkdədir. Əlbəttə, Fransa bu missiya ilə özünün ənənəvi ermənipərəstlik xəttini ört-basdır etməyə də ümid bəsləyə bilər.

Əlbəttə, erməniperəstlik nə qədər vacib olsa da, o, Fransanın Qafqaz avantürasında yalnız bir elementdir. Nəzərə alsaq ki, əsas məqsəd Cənubi Qafqazda Rusiya varlığına qarşı mübarizə aparmaqdır, o zaman bu mübarizənin, ümumən, Avropa İttifaqında liderliyə kökləndiyini də vurğulamalıyıq. Onu da nəzərə alaq ki, mövcud xüsusdakı liderlik Parisə, eyni zamanda, Qərb dünyasında lider ampluası da qazandırmış olacaq. Bu isə ABŞ-la, kontinental anlamda isə "köhnə qitə"nin digər dövlətləri ilə rəqabət baxımından vacibdir. Söhbət İtaliya, Almaniya və elə Böyük Britaniyanın özü ilə rəqabətdən gedir.

Bəli, onu da düşünməliyik ki, Fransanın Qafqaz optikası Rusiya prioritetlərindən çox fərqlidir. Əslində, Paris üçün region ölkələri, fərdi baxımdan, bir o qədər önəmli deyil. Fransa, xüsusilə, Emmanuel Makronun prezidentliyi dövründə kontinental liderliyə can atırsa, burada vurğulanmalı başlıca məqam da elə Aİ ilə bağlıdır. Yəni, Parisin böyük tutacaq yeri Aİ-dir. Təsadüfi deyil ki, K.Kolonnanın səfər proqramına avropalı müşahidəçilərin Ermənistandakı qərargahına səfər də daxildir.

Digər tərəfdən, Parislə Bakı arasında münasibətlərin kifayət qədər mürəkkəbliyinə baxmayaraq, fransalı nazirin Azərbaycana səfərinin İkinci Qarabağ müharibəsindən sonra yaranmış ziddiyyətləri aradan qaldırmaq məqsədi daşıdığını da söyləmək mümkündür. Çünki Paris Bakının Qərb üçün əhəmiyyətini, kifayət qədər, yaxşı dərk etməkdədir. Fransa Azərbaycanın manevr yolu tutaraq onu bölgədən uzaqlaşdırmaq naminə ciddi resurslara malikliyini də bilməmiş deyil.

Əlbəttə, Kolonnanın bölgəyə səfərindən Cənubi Qafqazın geosiyasi dizaynında kəskin dəyişikliklər gözləmək yersizdir. Çünki bölgənin gündəmi, ümumən, çox gərgindir və Parisin bu gərginliyə tutarlı adekvat irəli sürmək potensialı yoxdur. Onun bölgədəki təmsilçiliyi Aİ-nin mənasız müşahidəçiliyindən o yana getmir. Həm də ona görə getmir ki, buna regional lider kimi Azərbaycanın iradəsi yoxdur.

Bakı Parisə etimad göstərmir, bilir ki, Fransa hər an erməniperəst xislətini işə salmaqda israrlı tərpənəcək. Bu etimadsızlıq isə həm Rusiyanın, həm də Qərbin anti-Fransa köklənişində olan digər dövlətlərinin işinə yarayır. İkincilər Fransanı kəsərsiz obrazda görmək istəyirlər və buna müvəffəq olurlar. Yəni Parisin özünü dünyaya anti-Rusiya cəbhəsinin vacib səngərində dayandığını göstərərək dividend qazanmaq istəkləri də Rusiyaya qarşı ümumi mübarizə müqəddəsliyinin kölgəsində itib-batmaqdadır. Əlbəttə, mövcud durumdan ən çox fayda götürən Moskvadır.

***Ə.CAHANGİROĞLU,***
***"Xalq qəzeti"***

# Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq uğurla davam etdirilir



**Baş prokuror Kamran Əliyevin dəvəti ilə dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraçı Direktoru Yanne Holst Hübner və Baş müşaviri, İngiltərə və Uelsin Baş prokurorunun müavini Şenaz Muzafferin rəhbərliyi ilə nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.**

Aprelin 26-da keçirilmiş görüş zamanı Baş prokuror, BPA-nın vitse-prezidenti Kamran Əliyev qonaqlara ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq prokurorluq orqanlarında həyata keçirilmiş institusional və kadr islahatları barədə məlumat verməklə gənc hüquqşünasların işə qəbulu və onların peşəkar prokurorluq əməkdaşları kimi formalaşdırılmasının prioritet məsələlərdən biri olduğunu diqqətə çatdırıb.

Qonaqlar səmimi qəbula görə minnətdarlıq edərək prokurorluq orqanlarında həyata keçirilən islahatları yüksək qiymətləndirib, milli prokurorluq orqanlarımızın rəhbərliyi tərəfindən assosiasiyanın işinə verilən dəyərli töhfə və daimi dəstəyə görə təşəkkür ediblər.

2024-cü ildə ölkəmizin ev sahibliyi ilə keçiriləcək BPA-nın 29-cu İllik Konfransına və Ümumi Yığıncağına hazırlıq məqsədilə yaradılmış yerli təşkilat komitəsinin fəaliyyəti ilə bağlı iclas keçirilib, bir sıra təşkilati məsələlər müzakirə edilib.

Daha sonra, BPA rəsmiləri təşkilatın üzvlüyünə yeni qəbul olunmuş gənc əməkdaşlarla görüş keçirməklə üzvlük vəsiqələrini təqdim ediblər.

Nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri davam edir.

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

# Bakıda Avropa üzrə kibertəhlükəsizlik müzakirələri

**"Flame Towers"də Sosial Tədqiqatlar Mərkəzinin Avropa Birliyi və Avropa Şurası ilə birgə tədqiqat layihəsinin nəticələrinin təqdimatı ilə bağlı keçirilən konfrans kibertəhlükəsizliyin geniş spektri ilə məşğul olan peşəkar mütəxəssisləri bir araya gətirib.**

Tədbir "Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri. Ölkə üzrə kibertəhlükəsizliyə və kibercinayətlərə ictimai münasibət" adlanırdı.

Konfransda bildirilib ki, dünya əhalisinin 63 faizi, yaxud 5 milyard nəfəri qısa bir dövrdə rəqəmsal əhaliyə çevrilib. Hər il onların sayında orta hesabla 200 milyon artım baş verir. Bu qlobal transformasiya müsbət meyllərlə bərabər, İKT-dən asılılıq kibercinayətlər kimi yeni təhdidlər də gətirir. Bu fikirləri konfransın moderatoru, Sosial Tədqiqatlar Mərkəzi (STM) İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.

O bildirib ki, son illər sürətlə inkişaf edən "süni intellekt" texnologiyaları da kiber təhlükələrə qlobal xarakter verdi: "Davosda ənənəvi Dünya İqtisadi Forumu ekspertlərinin hazırladığı "Qlobal Təhdidlər" – "Global Threats 2018" hesabatında təbii fəlakətlərdən və qlobal istiləşmədən sonra kibercinayətlər sivilizasiya üçün ən mühüm təhlükə adlandırıldı.

Azərbaycan kibertəhlükəsizlik üzrə Avropa Konvensiyasına qoşulub. Ölkəmizdə kibertəhlükəsizlik yüksək səviyyədə təmin olunur. Bu fikirləri Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Rəqəmli media ilə iş sektorunun müdiri Elmir Vəlizadə səsləndirib. O, Beynəlxalq Telekommunikasiya İttifaqının hazırladığı kibertəhlükəsizlik üzrə sonuncu indeksdə Azərbaycanın 169 ölkə arasında 15 pillə irəliləyərək 40-cı pilləyə yüksəldiyini bildirib.

Kibertəhlükəsizlik üçün ilk növbədə təhsil sistemində – orta və ali məktəblərdə lazımi biliklər aşılanmalıdır. Kibertəhlükəsizlik kompleks məsələdir və burada güclər birləşdirilməlidir. Bu fikirləri rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Fərid Əhmədov bildirib.

Bundan başqa, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsi müavini Azər Əhədov, Dövlət Təhlükəsizliyi Xidmətinin Kibertəhlükəsizlik Mərkəzinin rəisi çıxışlarında kibercinayətlərə qarşı mübarizənin vacibliyindən söz açıblar.

Tədbir millət vəkilləri, dövlət təmsilçiləri, kibertəhlükəsizliklə məşğul olan mütəxəssislərin və media nümayəndələrinin çıxışları ilə başa çatıb.

***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***

*Xalqın istəyi – dövlətin iradəsi*

# "Zəhmət olmasa, pasportunuzu təqdim edin!"

**Bu nəzarət postu Hayastan tərəfinin sülh danışıqlarını, dinc nizamlanma prosesini pozmağa yönəlmiş təxribatlarına Bakının məntiqi cavabıdır.**

Qərb ölkələri rəsmi Bakının Laçın yolunda nəzarət-buraxılış məntəqəsi ilə bağlı atdığı konkret addımından, sadəcə, narahat olduqlarını bildiriblər. Çünki onlar beynəlxalq hüquq və qaydalar çərçivəsində hərəkət edən Azərbaycanı sərt şəkildə ittiham etməyə, yaxud qınamağa heç bir əsas tapa bilmədilər. Axı, Bakı ilə beynəlxalq terrorizm müstəvisində yaxından əməkdaşlıq edən həmin güclər Cənubi Qafqazda erməni terrorizminin sıradan çıxarılmasının vacibliyini çox yaxşı anlayırlar. Bakının həyata keçirdiyi bu hüquqi aksiya daha çox Ermənistanın daxilində rezonans doğurub və bu mövzuda ən müxtəlif peşə sahibləri sosial şəbəkələrdə fikirlərini bölüşürlər.



### Postun yaradılması gözlənilən idi

"Qarabağda yaşayan ermənilərin əksəriyyəti bölgədən çıxmaq barədə düşünür". Bu sözləri özünü Xankəndidəki qondarma "DQR"-in uydurma ombudsmanı kimi təqdim edən Qeqam Stepanyan deyib. O, iddia edir ki, Qarabağ erməniləri Laçın yolundakı məntəqədən keçərkən Azərbaycan sərhədçilərinə "hesabat" verməyəcəklər. Stepanyanın fikrincə, Azərbaycan bayrağının altından keçmək istəməyən ermənilər də olacaq. Buna görə çoxları Qarabağı tərk etmək haqda düşünür".

Laçın yolunda, Həkəri çayının körpüsünün üstündə nəzarət-buraxılış məntəqəsi qurulduqdan sonra 30-a yaxın erməninin Ermənistana qayıtdığına dair görüntülər yayılıb. İndi Bakı Qarabağın erməni sakinlərinə iki seçim variantı təklif edir: ya vətəndaşlığı qəbul edib torpağımızda yaşamalı, ya da Qarabağı tərk etməlisiniz! Düşünürük ki, onlara bizim milli pasportumuzu, lap dəqiqi, şəxsiyyət vəsiqəmizi əldə etmələri üçün müəyyən müddət təyin edilməlidir. Bəzi erməni blogerləri sərhəddə belə bir məntəqənin yaradılmasının gözlənildiyini, Xankəndidəki separatçı rejimin təzyiqlərlə erməni əhalisinin Azərbaycan vətəndaşlığını qəbul etməsinin qarşısını aldığını yazırlar. Həm də bu səbəbdən yerli ermənilər arasında ciddi təşvişin yarandığı bildirilir.

Sərhədçilərimizin nəzarət-buraxılış məntəqəsində bölgəyə gələn və gedən şəxslərin pasportları yoxlanılacaq. Artıq məlumdur ki, bəzi ermənilər Ermənistan pasportu gəzdirirlər, bəzilərinin cibində isə həm erməni, həm də Rusiya pasportu var.

### Yenə kənardan imdad diləyirlər

Ermənistanın baş naziri Nikol Paşinyanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Hayastan hökumətinin mətbuat xidmətinin məlumatına görə, dövlət başçıları Laçın yolu və Qarabağdakı "mövcud humanitar vəziyyətlə" bağlı məsələləri müzakirə ediblər. Bir gün əvvəl isə Paşinyan Aİ-nin prezidenti Şarl Mişellə telefon danışığında regionda sülh və sabitliyin təmin edilməsi üçün ardıcıl səylərin göstərilməsinin vacibliyini vurğulayıb. Paşinyan və Mişel bu dəfə də Ermənistan və Azərbaycan arasında aparılan sülh danışıqlarına dair fikir mübadiləsi aparıblar.

İrəvanın "qızdırmalı çapalamaları" yenidən gündəmə gəlib. Gec-tez sülh, qarşılıqlı anlaşma müstəvisində dialoq aparmağa məcbur olacağı yaxın ünvan qarşısında dursa da, hayların başını itirmiş baş naziri, deyəsən, bu dəfə də qapıları ikinci dövrədə saymağa başlayacaq...

### Hayların revanş xülyaları NBM-də basdırıldı

Bizimçün ən vacibi odur ki, Laçın yolunda yaradılan nəzarət-buraxılış məntəqəsi (NBM) müharibə təhlükəsini aradan qaldırdı. Bu məntəqə həm silahın, həm də silahlı erməni quldurlarının Qarabağa girişinin qarşısını alır, rəsmi İrəvanın III müharibədə revanş götürmək xülyalarını bloklayır və onu basdırmış olur. Prinsip etibarilə onların müharibə aparmaq üçün heç vaxt yetərincə gücləri olmayıb, çətin ki, bundan sonra olsun. Amma Azərbaycan Ordusunun arsenalında təxribatlara çevik reaksiya, sülhə məcburetmə kimi ehtiyat əməliyyat planları qalmaqdadır. Ehtimal olunan yeni hərbi qarşıdurmanın episentri isə indi yalnız Azərbaycan-Ermənistan şərti sərhədində ola bilər.

Amma aprelin 23-dən sonra bölgənin siyasi nəbzi Qarabağın erməni əhalisinin arasında vurmaqdadır. İndi onların hər birinin Azərbaycan Bayrağının altından keçməyə məcbur olacaqları bir yana, həm də həmin postu adlamaq üçün ciblərində "Şəxsiyyət vəsiqəsi" olmalıdır. Həmin postda sərhədçimizin cibində şəxsiyyətini rəsmi təsdiqləyən sənədi gəzdirən vətəndaşımıza ünvanlayacağı yeganə və səmimi sualı bu olacaq: "Zəhmət olmasa, pasportunuzu təqdim edin!".

***İ.HƏSƏNQALA,***
***"Xalq qəzeti"***

*Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**politoloq**

İndi Qarabağ ermənilərini əsas qayğısı guya odur ki, biz yolu bağlamışıq və ermənilər İrəvana gedib-gəlməkdə çətinlik çəkirlər. Onların iddiasına görə, biz 10 noyabr Bəyanatının şərtlərini pozuruq. Əslində həmin bəyanatda yazılmayıb ki, Azərbaycan öz torpağında keçid məntəqəsini yarada bilməz. Həmin mətndə nə belə bir şərt, nə tələb, nə də ifadə yer alır. Bununla bağlı Bakıya hər hansı bir irad da tutula bilməz. Yox, əgər 10 noyabr Bəyanatına istinad ediriksə, onda gərək Zəngəzur dəhlizini də onların yadına salaq. Həmin dəhliz hələ də açılmayıb, çünki ermənilər imzaladıqları 10 noyabr sənədinin şərtlərinə əməl etmirlər. Bu azmış kimi, haylar Ermənistan silahlı qüvvələrinin qalıqlarını, təxribatçı silahlı quldurları Qarabağdan çıxarmağa tələsmirlər. Oraya rahatca silah-sursat daşıyırdılar. Yəni, Azərbaycanın Laçın yolunun üstündə nəzarət-buraxılış məntəqəsini yaratmağa həm mənəvi, həm də hüquqi əsasları yaranmışdı və bunu etdi. Bununla, eyni zamanda, daşnak-revanşistlərin yeni müharibə çağırışlarının, hərbi təxribatlara cəhdlərin qarşısı alınmış oldu. İlk növbədə isə öz təhlükəsizliyimizi, ərazi bütövlüyümüzü təmin etdik. Bakının atdığı addım heç kəsi narahat etməməli və qorxutmamalıdır.

Həmin nəzarət-keçid məntəqəsini quraşdırmaqla biz kiməsə qarşı təcavüzkar planı işə salmırıq. Gediş-gəliş olsun, amma Azərbaycan qanunları çərçivəsində, bizim nəzarətimiz altında. Bundan sonra silahlı separatçıların, yad ünsürlərin Azərbaycanın Qarabağ iqtisadi rayonuna yolu birdəfəlik bağlanmalıdır.

# Azərbaycan Avrasiyanın enerji xəritəsinə yeni ünvanlar əlavə edir

**Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində uğurlu əməkdaşlığı ölkəmizə inamı getdikcə artırır. Elə bunun nəticəsidir ki, artıq əksər Avropa ölkələri ilə münasibətlərimiz dostluq və strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Prezident İlham Əliyevin təbirincə desək, artıq Avropa İttifaqına üzv dövlətlərin üçdə biri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var.**

Bu baxımdan ölkəmizin strateji tərəfdaşı olan Bolqarıstanla əlaqələrimiz xüsusi əhəmiyyət daşıyır. Ötən müddətdə qarşılıqlı səfərlər ölkələrimiz arasında münasibətlərə xüsusi dinamizm gətirib, bir çox sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığa təkan verib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 25-də dost ölkəyə növbəti səfərinin əhəmiyyəti isə daha böyükdür. Elə səfər çərçivəsində Sofiyada “Bulgartransgaz” (Bolqarıstan), “Transgaz” (Rumıniya), FGSZ (Macarıstan) və “Eustream” (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu”nun imzalanması da bunu təsdiqləyir. Xatırladaq ki, Memorandum Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü “Həmrəylik halqası” adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin iştirakı ilə keçirilən imzalanma mərasimində Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsonun videomüraciəti səsləndirilib.

Anlaşma Memorandumunun regiona əlavə qaz təchizatı baxımından alternativ marşrutlar üçün çərçivə təmin edəcəyini və bu məsələdə ölkəmizin roluna toxunan komissar Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu sübuta yetirdiyini bir daha bəyan edib. O, Avropa Komissiyasının Xəzər dənizindən təbii qazın Mərkəzi və Şərqi Avropaya çatdırılması üçün alternativ marşrutların təmin edilməsi üzrə əlavə səyləri dəstəklədiyini bildirib.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev Anlaşma Memorandumunun imzalanmasını əməkdaşlığın gücləndirilməsində atılan növbəti addım kimi səciyyələndirib. Ötən ilin iyul ayında Avropa Komissiyasının iştirakı ilə imzalanmış “Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu”nu xatırladan dövlətimizin başçısı deyib ki, Azərbaycan 2027-ci ilə qədər Avropa İttifaqı bazarına qaz təchizatını iki dəfə artırmağı planlaşdırır: “2021-ci ildə biz Avropaya 8 milyard kubmetr qazı çatdırdıq, bu il isə 12 milyard kubmetri hədəfləyirik. Beləliklə, həmin həcm bu il üçün planlaşdırdığımız 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracımızın təxminən yarısını təşkil edəcək... Bu gün Azərbaycan qazı Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edilir. Bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən biz Macarıstana və Slovakiyaya qaz təchizatına başlamağı planlaşdırırıq”.

Anlaşma Memorandumunun imzalanmasını Bolqarıstanla Azərbaycan arasında etibarlı, uzunmüddətli strateji əməkdaşlıqla əlaqələndirən Prezident Rumen Radev çıxışında Prezident İlham Əliyevin Azərbaycanın etibarlı ticarət tərəfdaşı olduğunu sübut etdiyini vurğulayaraq deyib ki, on ildən artıq müddət bundan əvvəl imzalanmış müqaviləyə əsasən Azərbaycan bir ildən çoxdur ki, Bolqarıstanı etibarlı şəkildə təbii qazla təchiz edir: “Bütün qlobal siyasi faktlara baxmayaraq, Azərbaycan müqavilənin şərtlərinə ciddi şəkildə əməl edir. Azərbaycan təkcə Bolqarıstanın deyil, həm də Avropa İttifaqının strateji tərəfdaşıdır. Bu, ötən ilin iyulunda, Azərbaycanın Avropa Komissiyası ilə enerji sektorunda strateji əməkdaşlığa və xüsusilə Avropa İttifaqına əlavə həcmdə qaz təchizatına dair Memorandum imzalaması ilə təsdiq olundu”.

Mərasimdə çıxış edən Bolqarıstanın energetika naziri Rosen Hristov, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto, Rumıniyanın energetika naziri Virgil-Daniel Popesku və Slovakiyanın iqtisadiyyat naziri Karel Hirman “Həmrəylik Halqası” Anlaşma Memorandumunu layihədə iştirak edən ölkələr arasında uğurlu və sıx əməkdaşlığın qurulmasının göstəricisi kimi dəyərləndirərək Azərbaycan qazının Avropa üçün xüsusi önəmini qeyd etdilər.

Slovakiyanın iqtisadiyyat naziri Karel Hirmanın Azərbaycanın nəhəng neft-qaz layihələrinin reallaşmasında ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətlərini xatırlaması isə bir daha sübut etdi ki, Avropada Azərbaycanın enerji siyasətinə hörmət və diqqət ən yüksək səviyyədədir. “Həmrəylik Halqası”nın icrası isə, heç şübhəsiz, Avropa İttifaqı ilə ölkəmiz arasında əlaqələri yeni mərhələyə daşımaqla yanaşı, Azərbaycan–Balkan ölkələri münasibətlərində yeni səhifə açacaq.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***

## Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



Azərbaycan 2022-ci il iyulun 18-də Avropa İttifaqı ilə enerji əməkdaşlığına dair memorandum imzalayıb. Həmin sənədlə Avropa İttifaqı Cənub Qaz Dəhlizinin genişləndirilmiş hissəsi ilə bütün qazın Azərbaycandan alınmasına razılığını ifadə edib.

Avropa qanunlarına görə isə, bir kəmərlə bir mənbədən 50 faizdən artıq qaz alınması mümkün deyil. Bununla belə, mövcud şəraiti nəzərə alan Avropa İttifaqı bütün qazın Cənub Qaz Dəhlizinin genişləndirilmiş hissəsi ilə Azərbaycandan gəlməsinə etiraz etməyib. Ondan sonrakı dövrdə aparılan danışıqlar, araşdırmalar isə qazın hansı istiqamətdə Avropanın hansı hissəsinə axması ilə bağlı olub.

Aprelin 25-də Sofiyada imzalanmış memorandum qaz infrastrukturunun yaxşılaşdırılması və “mavi yanacaq”la təminat məsələlərini özündə ehtiva edir. Yeni memoranduma imza atan ölkələr özlərinin birləşdirici qaz kəmərlərini ona görə birgə səylərlə genişləndirib inkişaf etdirirlər ki, lazımi qaz həcmlərini Azərbaycandan ala bilsinlər. Bu da ondan ibarətdir ki, artıq Avropaya çıxarılacaq 10 milyard kubmetr əlavə qaz həcmlərinin 7-8 milyard kubmetri Cənuba doğru deyil, Şərqi və Mərkəzi Avropaya, eləcə də bir sıra Balkan ölkələrinə yönəldiləcək.

Memorandumu imzalamış Bolqarıstanın Azərbaycanla 1 milyard kubmetr həcmdə qazın alqı-satqısına dair müqaviləsi var. İndi isə bu ölkə Azərbaycandan aldığı qazın həcmini iki dəfə artırmaq istəyir. Bundan əlavə, memorandumun digər iştirakçıları– Rumıniya ən azından 2 milyard kubmetr, Macarıstan 2-3 milyard kubmetr, Slovakiya isə 1,5 milyard kubmetr Azərbaycan qazını almağı hədəfləyir. Eyni zamanda, Serbiya və Xorvatiya ölkəmizdən birlikdə 2 milyard kubmetr qaz almaq niyyətindədir. Belə olan təqdirdə Azərbaycan qazının yalnız 2 milyard kubmetri Cənuba doğru axa bilər. Həmin həcmin də 0,5 milyard kubmetri Albaniyaya, 1,5 milyard kubmetri isə İtaliya bazarına yönələcək. Qazın yerdə qalan hissəsini isə Yunanıstan əldə etmək istəyir.

Bu da Azərbaycan enerjidaşıyıcılarının ixracının şaxələndirilməsi siyasətinə sadiqliyini bir daha təsdiq edir. Yeri gəlmişkən, 2005-ci ildə Avropa Parlamenti Avropa Komissiyasına enerjidaşıyıcılarının idxalının şaxələndirilməsi ilə bağlı tövsiyə vermişdi. Azərbaycan isə yaxın illərdə məhz Avropa məkanında şaxələndirmə siyasətini həyata keçirməyə müvəffəq olacaq.

**“Əsrin müqaviləsi” çərçivəsində indiyədək 4,2 milyard barel neft hasil olunub. Ötən müddətdə sözügedən müqavilə üzrə Azərbaycan Dövlət Neft Fonduna 167 milyard dollar vəsait daxil olub. Bundan əlavə,“Şahdəniz” yatağı üzrə hasilatın ilk günündən bugünədək təxminən 189 milyard kubmetr qaz hasil edilib.**

# “Qara qızıl” Neft Fonduna 167 milyard dollar qazandırıb



Bu barədə BP-nin Xəzər bölgəsində xarici əlaqələr və kommunikasiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan “Müstəqil Azərbaycanın memarı” adlı beynəlxalq elmi konfransda çıxışı zamanı məlumat verib.

Mənfəətdən əldə olunan gəlirlərin ölkə iqtisadiyyatı, sosial və digər sahələrin inkişafı üçün əhəmiyyətinin böyük olduğunu vurğulayan B. Aslanbəyli qeyd edib ki, hazırda Xəzərin Azərbaycan sektorunda 8 platforma var. İyun ayında isə Azəri-Mərkəzi-Şərqi platformasının quraşdırılması yekunlaşdırılacaq. O, həmçinin qeyd edib ki, mövcud platformalarda və Səngəçal terminalında dünyanın neft və qaz sahəsində ən son texnoloji avadanlıqlar tətbiq olunur.

Qeyd edək ki, “Şahdəniz” perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş 1996-cı il iyunun 4-də imzalanıb. Bakıdan 70 kilometr cənub-şərqdə yerləşən “Şahdəniz” yatağı 1999-cu ildə kəşf olunub.1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarət olan nəhəng “Şahdəniz” yatağının kəşfi və qaz layihəsinin uğurla həyata keçirilməsi Azərbaycanı dünyanın qaz ixrac edən ölkəsinə çevirib.

“Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi haqqında müqavilə isə 1994-cü il sentyabrın 20-də imzalanıb. Müqavilənin müddəti 2024-cü ildə başa çatmalı olsa da, 2017-ci il sentyabrın 14-də Bakıda AÇG blokunun işlənməsi haqqında 2050-ci ilədək olan dövrü əhatə edən yeni saziş imzalanıb. Bakıdan təxminən 100 kilometr şərqdə yerləşən “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun ehtiyatları 1 milyard 72 milyon ton həcmində müəyyən edilib.

***“Xalq qəzeti”***

# TRACECA transregional ticarətdə önəmli dəhlizdir

**Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.**

Bütün bu istiqamətlərdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

Dünyada və regionda cərəyan edən geosiyasi hadisələr fonunda Azərbaycanın nəqliyyat-tranzit infrastrukturuna da tələbat artıb. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmiz regionun mühüm nəqliyyat və logistika habı kimi tanınır. Ötən il Azərbaycan ərazisindən keçən tranzit yükdaşımalar 75 faizdən çox artıb. Ölkədə yol infrastrukturunun tikintisi, yenidən qurulması və bərpası davam etdirilib. Vətən müharibəsində qazanılan qələbədən sonra regionumuzda nəqliyyat–kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar açılıb. Bu kontekstdə yeni beynəlxalq və regional nəqliyyat–logistika dəhlizlərinin, xüsusilə Zəngəzur dəhlizinin açılması böyük əhəmiyyət kəsb edir.

TRACECA-nın (Avropa-Qafqaz-Asiya Beynəlxalq Nəqliyyat Dəhlizi) beynəlxalq yük daşımalarının səmərəliliyinin təmin edilməsində fəal iştirakçı olan Azərbaycan bu dəhlizə üzv 13 ölkə ilə birlikdə nəhəng infrastrukturun inkişafında mühüm rol oynayır, daşımaların həcminin artırılması məqsədilə xüsusi layihələrin həyata keçirilməsinə prioritet istiqamət kimi yanaşır. Bir sözlə, TRACECA boyunca multimodal nəqliyyatın inkişafı, dəhlizin rəqəmsallaşdırılması, sərhəd-keçid prosedurlarının asanlaşdırılması, beynəlxalq avtomobil nəqliyyatı üzrə icazə sistemləri, habelə infrastrukturun inkişafına yönəlmiş digər məsələlərin həllinə böyük önəm verir.

Ümumiyyətlə, respublikamızda uzun illər ərzində nəqliyyat–logistika sisteminin inkişafı ilə bağlı qoyulan investisiya hesabına bu sahədə mühüm layihələr icra edilib, dəmir və magistral yollar istifadəyə verilib, yeni tankerlər, bərələr və yük gəmiləri potensialı gücləndirilib, müasir gəmiqayırma müəssisəsi işə salınıb. Bütün bunlarla bərabər, ölkəmiz Bakı–Tbilisi–Qars dəmir yolu infrastrukturunun Gürcüstan hissəsinin genişləndirilməsinə sərmayə yatırıb. Yeni Bakı Dəniz Ticarət Limanı (Bakı limanı) 15 milyon tondan 25 milyon tona qədər genişləndirilməsini, hava limanları layihələrinin tamamlanmasını gerçəkləşdirib.

Onu da xatırladaq ki, Bakı limanının ərazisi də daxil olmaqla ətraf sahələrdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi limanı daha geniş tranzit və daşıma imkanları ilə təmin edəcək. Məhz elə buna görə də Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin, inkişafının və idarə edilməsinin hüquqi rejimini müəyyən edən “Ələt Azad İqtisadi Zonası haqqında” 18 may 2018-ci il tarixli Qanun imzalayıb.




Bakı Limanının ətrafında Dubaydakına bənzər azad iqtisadi zona modelinin reallaşdırılması nəzərdə tutulur. Qanunun əsas məqsədi təsərrüfat subyektləri üçün maksimum əlverişli vergi, gömrük, lisenziyalaşdırma, viza rəsmiləşdirilməsi və s. rejimləri yaratmaqla Ələt Azad İqtisadi Zonasını xarici şirkətlər, investorlar üçün cəlbedici etməkdir.

TRACECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin baş katibi Aset Asavbayevin sözlərinə görə, Transxəzər Beynəlxalq Şərq–Qərb Orta Dəhlizi boyu “Bir pəncərə” prinsipindən istifadə etməklə tranzit gömrük prosedurunun sadələşdirilməsi hazırda qarşıda duran önəmli vəzifədir. “Rəqəmsallaşma təkcə marşrutun cəlbediciliyinin artmasına imkan verməyəcək, həm də əlavə yüklərin cəlb edilməsinə səbəb olacaq. TRACECA bütün maraqlı strukturlara qeyd olunan proseslərdə dəstək göstərməyə hazırdır” –deyə, o əlavə edib.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, TRACECA beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycan hissəsi ilə yük daşımaları 2022-ci ildə 51 milyard 420 milyon tondan artıq olub ki, bu da 2021-ci ildəkindən 29,76 faiz və ya 11 milyard 8 milyon ton çoxdur.

Azərbaycan Dövlət Statistika Komitəsindən verilən məlumata görə, qeyd olunan dövrdə TRACECA-nın Azərbaycan hissəsi ilə yük dövriyyəsi 12,649 milyard ton-kilometrdən artıq olub ki, bu da 2021-ci ilin göstəricisindən 31,9 faiz yüksəkdir.

Ötən il Azərbaycanda avtomobil nəqliyyatı ilə yük daşımaları 27,967 milyon tonu keçməklə ümumi yük daşımalarının 54,4 faizini təşkil edib. Dəmir yolu ilə yükdaşıma 16,841 milyon ton (32,7 faiz), dəniz nəqliyyatı ilə daşınmalar 6,612 milyon ton (12,9 faiz) təşkil edib.

Ümumi yükdaşımaların 13,634 milyon tonu (26,5 faizi) isə tranzit yük daşımalarının payına düşüb.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

**İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov “Heydər Əliyev və Azərbaycanda sahibkarlığın inkişafı” mövzusunda keçirilən konfransda ölkəmizdə 7 sənaye parkı və 5 sənaye məhəlləsinin fəaliyyət göstərdiyini bildirib. O, sənaye zonalarında istehsal olunan məhsulların dünyanın 50-dən çox ölkəsinə ixrac edildiyini, bu zonalara indiyə qədər 6,5 milyard manat investisiya qoyulduğunu, həmçinin 10 mindən çox daimi iş yerinin yaradıldığını da vurğulayıb.**

# Sənaye zonalarına 6,5 milyard manat investisiya qoyulub



“2023-cü ildən işğaldan azad edilmiş rayonlarda sahibkarlıq fəaliyyətinin cəlbediciliyini artırmaq məqsədilə düşməndən təmizlənən rayonlarda rezidentlər mənfəət, gəlir, əmlak və torpaq vergisindən azad edilib. Onların sosial sığorta ödənişləri dövlət büdcəsi hesabına subsidiyalaşdırılıb. Eyni zamanda, bu ərazilərdə istehsalı stimullaşdırmaq üçün xammal idxalı 10 il müddətində ƏDV-dən azad olunub”, –deyə S. Ələkbərov əlavə edib.

***“Xalq qəzeti”***

AKADEMİK ZƏRİFƏ ƏLİYEVA – 100

# Azərbaycan oftalmologiyasını dünyada şöhrətləndirən alim



**Azərbaycanın elmi-mədəni tarixində silinməz iz qoymuş, xalqımızın parlaq simaları sırasında əbədi yer almış görkəmli alim və həkim, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100-cü ildönümü ölkəmizdə təntənəli surətdə qeyd edilir. Həyatdan vaxtsız köçmüş dünya şöhrətli oftalmoloqun əziz xatirəsinə dərin ehtiram ifadə olunur, təbabət elminin inkişafında alimin xidmətləri qədirbilənliklə yada salınır.**

Hər bir xalq onun ümumi tərəqqisində, sivil dəyərlərə qovuşmasında müstəsna xidmətləri olan övladları ilə, haqlı olaraq, öyünür, belə yetirmələrinin həyat və mübarizə yolunu milli yetkinləşmə örnəyi kimi qəbul edir. Azərbaycan xalqının belə şəxsiyyətlərindən biri də humanist insan, görkəmli ictimai xadim, oftalmoloq-alim Zərifə xanım Əliyevadır. Milli-mənəvi dəyərlərimizin qorunmasında, yeni nəsillərin təlim-tərbiyəsində Azərbaycan qadınının oynadığı tarixi rolu şəxsi nümunəsi və çoxsaylı xidmətləri ilə zənginləşdirmiş istedadlı alim və təcrübəli oftalmoloq Zərifə xanım Əliyeva xalqın sonsuz sevgisini qazanaraq yaddaşlarda silinməz izlər qoyub.

Görkəmli alimə və şəfalı təbibə belə bir zirvəyə yüksəlməkdə dərin zəkası, yüksək mənəviyyatı, böyük zəhmətsevərliyi ilə yanaşı, həm də gendən və böyüdüyü ailənin ictimai statusundan irəli gələn keyfiyyətlər də dəstəkçi olub. Zərifə xanım atasının – görkəmli dövlət adamı və ictimai xadim, nüfuzlu pedaqoq-alim, professor Əziz Əliyevin xalqa xidmət və elmi yaradıcılıq yolunu uğurla davam etdirib. Ailəyə məxsus ziyalılıq, əməksevərlik, səmimilik, doğma ocağa, xalqa və Vətənə məhəbbət bu nəcib və fədakar insanın həyatında yüksək təcəssümünü tapıb. Azərbaycan qadınının yüksək məramını və şərəfli adını daim uca tutan Zərifə xanım xalqımızın şöhrət çələnginə solmaz güllər əlavə edib.

Yüksək mədəniyyəti, ünsiyyətdə səmimiliyi, qayğıkeşliyi, ehtiyacı olanın köməyinə çatmaq bacarığı Zərifə xanımın xarakterinin başlıca keyfiyyətləri olub. Hədsiz dərəcədə xeyirxah bir insan olaraq o, yaşamaqdan, işləməkdən xüsusi zövq alıb, insanlara gərəkli olmaq üçün bütün bilik və bacarığını sərf edib. Bu dəyərlər onun həyatının əsas yönünü mənalandırıb, uğurlarına yol açıb.

Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri zənginliyi və çoxcəhətliyi ilə nadir bir nümunə təşkil edir. Novator alim, pak və nəcib bir insan kimi onun mənalı ömür yolu hər bir soydaşımız, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Dünya şöhrətli alimin zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsi olmaqla yanaşı, dünya təbabətinə də layiqli töhfə sayılır. Nadir elmi əsərlərin, səmərələşdirici təklif və ixtiranın müəllifi olan Zərifə xanımın irsi bu gün də öz aktuallığını itirməyib.

Sevib-seçdiyi peşəsinə müstəsna bir həvəslə yanaşan, daim yeniliklər axtarışında olan Zərifə xanımın elmi tədqiqatları ilk illərdən böyük maraq doğurub, təcrübi əhəmiyyət daşıyıb. Onun elmi irsində peşə ilə bağlı görmə problemi xüsusi yer tutur. İlk dəfə olaraq doktor Əliyeva sənaye obyektlərində müxtəlif maddələrin insan gözünə təsiri sahəsində elmi tədqiqatlar aparıb. Azərbaycanlı oftalmoloq dünyada peşə patologiyasını araşdıran ilk elmi-tədqiqat laboratoriyası yaradıb və bununla təbabət elmində yeni bir istiqamətin – peşə oftalmologiyasının əsasını qoyub.

Uzun illər apardığı müşahidələr, kliniki tədqiqatlar əsasında Zərifə xanım Əliyeva 1976-cı ildə dünyanın ən nüfuzlu oftalmoloji mərkəzlərindən biri olan Moskva Elmi Tədqiqat Göz Xəstəlikləri İnstitutunda doktorluq dissertasiyasını müdafiə edib. Peşə xəstəlikləri ilə bağlı elmi araşdırmalarının uğurlu nəticələrinə görə professor Zərifə Əliyeva oftalmologiya sahəsində ən mötəbər mükafata – SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Zərifə xanım Əliyeva bu mükafatla təltif olunan ilk qadın alim idi.

Akademik Zərifə Əliyevanın alim kimi qazandığı böyük uğurlar Azərbaycan tibb elminin tarixində ayrıca bir mərhələ təşkil edir. O, elmi-pedaqoji fəaliyyətində səmərəli tədqiqat işləri ilə yanaşı, yüksək ixtisaslı kadrların hazırlanmasına və oftalmoloq-həkimlərin ixtisaslarının artırılmasına da xüsusi diqqət yetirib, böyük zəhmət sərf edib. Görkəmli oftalmoloqun birbaşa rəhbərliyi ilə gənc alimlərin və göz həkimlərinin böyük bir nəsli yetişdirilib. Zərifə xanım həmişə tələbələrinə peşə təcrübəsini həvəslə öyrədib, onlara insani həssaslıqla yanaşıb. Bu gün də onun yetişdirdiyi kadrlar insanlara sağlamlıq bəxş edirlər.

Zərifə xanımın həkim fədakarlığı, yüksək vətəndaşlıq məsuliyyəti, insanların problemlərinə qayğısı, fəal həyat mövqeyi ona həmkarlarının, yetirmələrinin və xəstələrinin dərin hörmətini qazandırıb. Bütün bunlardan əlavə, akademik Zərifə Əliyeva Azərbaycan oftalmologiyasını keçmiş İttifaq və dünya səviyyəsində tanıdan, təbabətdə öz dəst-xətti olan peşəkar həkim və yenilikçi alim kimi məşhurlaşıb. Təbabət elminə sanballı töhfələrinə, çoxillik elmi-tədqiqat işlərinə görə professor Zərifə Əliyeva Azərbaycan Respublikası Elmlər Akademiyasının akademiki seçilib. Zərifə xanım bir sıra orden və medallarla təltif olunub, Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Zərifə xanımın keçdiyi şərəfli həyat yolu müasir qadının bitkin və kamil simasının formalaşması üçün həyat dərsliyidir. Bu insanın işgüzar keyfiyyətləri onun şəxsi davranışları ilə ahəngdarlıq təşkil edirdi. Təkcə alimliyi, həkimliyi ilə yox, dövlət xadiminin qızı, dünya şöhrətli siyasətçinin ömür-gün yoldaşı kimi də Zərifə xanım qibtə ediləcək bir tale yaşayıb. Siyasətçilər, politoloqlar Heydər Əliyev irsini araşdırarkən ulu öndərlə bir yerdə ikinci böyük bir şəxsiyyətin adına da mütləq diqqət yetirməli olurlar. Bu mənada onun bioqrafiyası "Hər bir güclü kişinin arxasında güclü bir qadın dayanır" həqiqətini bir daha təsdiqləyir.

Zərifə Əliyevanın müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, bütün mənalı ömrünü Vətəninin və xalqının tərəqqisinə həsr etmiş dahi şəxsiyyətin - Heydər Əliyevin vəfalı ömür-gün yoldaşı, sədaqətli dostu və etibarlı silahdaşı olması hər bir azərbaycanlı üçün ikiqat önəmli və öyünclüdür. Heydər Əliyev və Zərifə xanım gənclik illərindən həyatın ağrı-acılarını da dadıblar, amma bütün çətinliklərə sinə gərərək talelərini ortaqlaşdırmağı bacarıblar, mənalı və şərəfli ömür yaşayıblar.

Ulu öndər Heydər Əliyev həyatda qazandığı böyük uğurlarda Zərifə xanımın diqqət və qayğısını, mənəvi dəstəyini yüksək qiymətləndirirdi.

Bir-birini üzvi surətdə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı bütün cəmiyyət üçün nümunə, gənclərimizə örnək, ən yaxşı milli dəyərlərimizin cəmləşdiyi zəngin bir qaynaqdır.

Ümummilli lider Heydər Əliyev ölkə rəhbəri kimi fəaliyyətinin ilk günlərindən respublikada ciddi dəyişikliklər prosesi başlayıb, Azərbaycan sürətli inkişaf yoluna qədəm qoyub. Bu yeniləşmə ölkənin mədəni və elmi həyatında da canlanma yaradıb. Sovet dövründə məhz ulu öndər Heydər Əliyevin cəsarəti, fədakarlığı və ona dayaq olan Zərifə xanımın xalqına dərin bağlılığı milli dəyərlərimizi məhv olmaqdan qoruyub, Azərbaycanda milli elm və təhsilin, ədəbiyyat və incəsənətin tərəqqisinə əlavə təkan olub.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Bu iki dahi şəxsiyyətin övladı, müstəqil Azərbaycanın rəhbəri İlham Əliyev məhz Heydər Əliyev siyasət məktəbindən dərs alaraq, Zərifə xanımın ana məhəbbətindən səmimiyyət əxz edərək xalqa xidmət amalını bir ailə ənənəsi kimi qəbul edib. Ulu öndərin həyat və mübarizə yolunun ən layiqli davamçısı kimi Oğul Əliyev Ata Əliyevin arzu və əməllərini yüksək səviyyədə gerçəkləşdirir.

Dövlət başçısı İlham Əliyev Ata vəsiyyətinə, Ana öyüdünə sədaqəti ilə bu gün Azərbaycanın taleyüklü məsələlərini məharətlə həll edir və haqlı olaraq xalqın böyük inam və güvənc ünvanına çevrilib. Ölkəmizin sürətli inkişafına, dünyadakı nüfuzuna, möhtəşəm uğurlarına nəzər salarkən dövlət başçısının bilik və bacarığının, qətiyyət və müdrikliyinin təməlində ulu öndər Heydər Əliyev ilə yanaşı, Zərifə xanımın da arzu-istəklərinin seçilən izlərini görürük.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi yolla sürətlə inkişaf edən, azad, müstəqil, gələcəyə inamla baxan müasir Azərbaycanı görmək, çox təəssüf ki, Zərifə xanıma qismət olmadı. Lakin Azərbaycanın bugünkü uğurları bu nəcib və nurlu şəxsiyyətin ruhunu daim şad edir.

Zərifə xanım Əliyeva xalqımızın mənəvi dünyasında daim yaşayacaq bir insan kimi artıq çoxdan abidələşmişdir. Azərbaycan səhiyyəsinin və bütünlükdə tibb elminin inkişafında unudulmaz xidmətləri olan böyük alim, istedadlı göz həkimi Zərifə Əliyeva qəlbimizdə dahi insan, kübar qadın, mehriban və qayğıkeş ana kimi yaşamaqdadır. Zərifə xanım bir insanın və bir alimin yüksələ biləcəyi ən ali məqamdadır. O məqamın adı əbədiyyətdir.

***Asif ƏSGƏROV,***
***Nəsimi Rayon***
***İcra Hakimiyyətinin başçısı***



# Akademik Zərifə Əliyeva anıldı

**Mərkəzi Gömrük Hospitalında akademik Zərifə Əliyevanın 100 illik yubileyinə həsr edilmiş anım tədbiri keçirilib. Tədbirdən öncə Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov və nümayəndə heyəti Fəxri xiyabana gələrək müasir Azərbaycan dövlətinin qurucusu ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini anıb, məzarları önünə tər çiçəklər düzüblər.**

Mərkəzi Gömrük Hospitalında keçirilən tədbirdə Azərbaycan Respublikası Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, Tibbi Xidmət İdarəsinin rəis müavinləri İsmayıl Əfəndiyev və Fərid Əbilov, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayev, könüllü gömrükçülər və əməkdaşlar iştirak ediblər.

Anım mərasimini giriş sözü ilə açan Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin rəisi, t.ü.f.d., əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov tədbir iştirakçılarını salamlayaraq, 2023-cü ilin Azərbaycanda iki unudulmaz insanın - müasir Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin və Azərbaycan elminin ən parlaq simalarından olan görkəmli oftalmoloq alim və həkim Zərifə xanım Əliyevanın 100 illik yubileylərinin qeyd olunması ilə əlamətdar olduğunu qeyd edib.

C.Məmmədov ilk növbədə, Azərbaycanın görkəmli alimi, əməkdar elm xadimi, tibb elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Zərifə Əziz qızı Əliyevanın bir alim kimi gələcək nəsillərə nümunə olacaq elmi fəaliyyətindən danışıb, alimin keçdiyi şərəfli ömür yolunu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün həyat və mənəviyyat dərsi, kamillik və müdriklik məktəbi adlandırıb. O, bildirib: "Sıravi həkimlikdən akademik zirvəsinə ucalan Zərifə xanımın elmi araşdırmaları, alim kimi qazandığı böyük uğurları Azərbaycanın tibb elmi tarixində xüsusi yer tutur. O, elmdə heç vaxt asan yol axtarmırdı, keçilməmiş yollarla gedib, yeni cığırlar salırdı, öz elmi araşdırmalarını praktik əhəmiyyət daşıyan aktual mövzulara həsr edirdi. Bu, Zərifə xanımın ən böyük dəyərlərindən biridir".

Ceyhun Məmmədov Zərifə Əliyevanın gözəl ana, sədaqətli ömür-gün yoldaşı olduğunu qeyd edərək, Ümummilli Liderimizin xalqı üçün gördüyü böyük işlərdə bu gözəl insanın əməyinin, istedadının, qəlbinin bir zərrəsi olduğunu vurğulayıb. Sonra akademik Zərifə Əliyevanın həyat və fəaliyyətinə həsr edilmiş və tədbir iştirakçıları tərəfindən böyük maraqla qarşılanmış video material təqdim olunub.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimi Yazgül Abdiyeva, Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin elmi-təcrübi tədris mütəxəssisi Şəhla Mirzəzadə və könüllü gömrükçü Leyla Mollayeva akademik Zərifə Əliyevanın tibb elminə verdiyi töhfələrdən danışıblar.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# İcmayönümlü səhiyyə xidməti ilə bağlı seminar

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) milli səhiyyə tərəfdaşları ilə birgə beşgünlük seminar təşkil edib. Seminarın məqsədi Bakı şəhərinin 300 minə yaxın əhalisi olan Nəsimi rayonunda kiçik miqyaslı icmayönümlü səhiyyə xidmətinin (İYSX) tətbiq olunması planını hazırlamaqdır. İYSX icmanın xüsusiyyətlərini nəzərə almaqla və icma üzvlərinin fəal iştirakı ilə xəstəliklərin qarşısının alınması və sağlam həyat tərzinin təbliği ilə bağlı müxtəlif qurumların əməkdaşlığını nəzərdə tutur.**

Seminarın ilk günündə ölkədə ictimai səhiyyənin inkişafını dəstəkləmək üçün yaradılan "İctimai səhiyyə üzrə potensial qrup" və "İctimai səhiyyə üzrə koordinasiya qrupu" nümayəndələri, yerli səhiyyə qurumlarının təmsilçiləri, Azərbaycan Tibb Universitetinin ictimai səhiyyə fakültəsi və müxtəlif kafedralarının müəllimləri və ÜST mütəxəssislərindən ibarət 65 nəfərlik iştirakçı qrupu İYSX-nin prinsip və tətbiq üsulları barədə məlumatlandırılıb. Onlar üç qrupa bölünərək əhalinin sağlamlığı ilə bağlı məlumat toplamaq və ən çox rast gəlinən sağlamlıq problemlərini müəyyən etmək üçün rayonun səhiyyə mərkəzlərinə baş çəkiblər.

Seminarın növbəti günlərində iştirakçılar səhiyyə mərkəzlərindəki müşahidələrindən istifadə edərək və rayon üzrə digər səhiyyə və demoqrafik məlumatları öyrənərək icmanın səciyyələndirilməsi, sağlamlıq problemlərinin prioritetləşdirilməsi və ətraflı qiymətləndirilməsi üzərində işləyiblər. İşçi qrupları daha sonra rayon üçün ətraflı İYSX planını hazırlayacaqlar. Plan 2023-cü il iyununda keçiriləcək birgə iclasda milli səhiyyə qurumları və digər maraqlı tərəflərə təqdim ediləcək.



Seminar USAID tərəfindən maliyyələşdirilən və ÜST tərəfindən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və TƏBİB ilə əməkdaşlıqda həyata keçirilən "Azərbaycanda pandemiyaya cavab tədbirləri" layihəsi çərçivəsində təşkil edilmişdir. Tədbirin təşkilinə Nəsimi Rayon İcra Hakimiyyəti də dəstək göstərmişdir.

***Zərifə HÜSEYNOVA, "Xalq qəzeti"***

Təşəbbüsün ünvanı

# Göygöldə ictimai sorğu yeni hədəfləri aşkar edib



**Göygöl rayon sakinləri arasında keçirilən məmnunluq sorğusu böyük maraqla qarşılanmışdır.**

Rayon icra hakimiyyətinin təşəbbüsü ilə təşkil olunan bu tədbirin məqsədi sakinlər arasında icra qurumu və onun strukturlarının fəaliyyətini qiymətləndirmək, elektron xidmətlərdən istifadə, həmçinin turizm potensialının inkişafı və sair sahələr üzrə fikir və təkliflərin öyrənilməsi olmuşdur.

Göygöl şəhəri, Balçılı, Toğanalı, Yeni Zod, Sarısu, Topalhəsənli, Şəhriyar, Dozular kənd və Göygöl Milli Park ərazisində "ASAN Könüllülər" təşkilatı, YAP Gənclər təşkilatı, Göygöl Gənclər Evi və Aqrar inkişaf könüllülərinin dəstəyi ilə keçirilən sorğuda 300-dən çox vətəndaş iştirak etmişdir.

Sorğunun nəticələrinə əsasən, sakinlər böyük fəallıq göstərərək yeni turizm subyektlərinin formalaşdırılması, aqrar sahədə olan su probleminin aradan qaldırılması, internetin sürətinin artırılması, qazlaşdırılmamış ərazilərə qaz xəttinin çəkilməsi, yeni yaşayış massivlərində yolların asfaltlanması və sair məsələlərlə bağlı təkliflər irəli sürmüşlər.

***Hamlet QASIMOV, "Xalq qəzeti"nin müxbiri***

# Bolqarıstan Azərbaycan qazının Avropa qapısına çevrilir

(əvvəli 1-ci səhifədə)

Mərasimdə dövlətimizin başçısının indiki səfəri zamanı Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında Anlaşma Memorandumunun imzalanması isə enerji resurslarının nəqlinin daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində vaxtında atılan çox mühüm addım kimi dəyərləndirilib.

Burada bir məqamı da xatırlatmaq istərdik. Prezident İlham Əliyev hələ ötən ilin oktyabr ayında Bolqarıstan Respublikasının paytaxtı Sofiya şəhərində Yunanıstan–Bolqarıstan Qaz İnterkonnektorunun istifadəyə verilməsi mərasimindəki çıxışında SOCAR-ın ofisinin açılması məsələsinə toxunaraq qeyd edib ki, respublikamız enerji sahəsində təkcə təbii qazın ixracı ilə işi bitmiş hesab etmir: “Biz enerji ilə bağlı olan digər məsələləri də müzakirə etdik. Elektrik enerjisinin ixracı və bu sahədə qarşılıqlı faydalı əməkdaşlıq, xam neftin Bolqarıstan istiqamətinə nəqli, Bolqarıstanda enerji infrastrukturunun yenilənməsində SOCAR-ın mümkün iştirakı və digər məsələlər müzakirə olundu. Bir sözlə, SOCAR-ın Bolqarıstandakı ofisinin açılması vaxtı çatıb və əminəm ki, biz yaxın vaxtlarda bunu da edəcəyik”.

Bu il martın 11-də Bolqarıstan Prezidenti Rumen Radev də dövlətimizin başçısına videokonfrans formatında görüşündə Azərbaycan liderinin verdiyi vədə sadiq qalaraq bu layihənin reallaşdırıldığı, Sofiyada SOCAR-ın ofisinin açıldığı üçün təşəkkürünü çatdırıb.

Onu da qeyd edək ki, ölkəmiz “mavi yanacaq” tədarükündə də Bolqarıstanla sıx əməkdaşlıq edir. Məsələn, Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan TAP vasitəsilə hər il Bolqarıstana bir milyard kubmetr həcmində qaz nəql olunur.

Yeri gəlmişkən, Azərbaycan qazının Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya nəqlinə 2020-ci il dekabrın 31-də başlanılıb. Həmin vaxt Azərbaycan tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarıb. Eyni zamanda, təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan öz ixrac imkanlarını da şaxələndirməyə nail olub.

Göründüyü kimi, energetika sahəsində strateji tərəfdaş olan Bolqarıstan Cənub Qaz Dəhlizinin fəal üzvüdür. Döst ölkə Bakıda keçirilən Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının iclaslarında yüksək səviyyədə təmsil olunub, adıçəkilən nəhəng transmilli layihənin icrası ölkələrimiz arasında əlaqələri daha da möhkəmləndirib.

Cənub Qaz Dəhlizinin maliyyə tutumu 40 milyard dollara bərabərdir və bu layihə 7 ölkəni birləşdirir. Azərbaycanın nəhəng “Şahdəniz” yatağından qaz Avropa dövlətlərinə və region ölkələrinə, o cümlədən Bolqarıstana çatdırılır. Bununla da Azərbaycan qazı Bolqarıstanın enerji təhlükəsizliyi məsələlərinin həllində öz əhəmiyyətli rolunu oynayır.



Azərbaycan Bolqarıstan ilə bütün sahələrdə əməkdaşlığın daha da dərinləşməsini və möhkəmlənməsini daim diqqətdə saxlayır. Hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və əczaçılığın inkişafı üçün müxtəlif layihələr gerçəkləşdirilir.

Azərbaycan iqtisadiyyat, ticarət və nəqliyyat sahələrində əlaqələrin genişlənməsi üçün böyük imkanlar yaradan Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin həyata keçirilməsinə də xüsusi diqqət yetirir. Eyni zamanda, Azərbaycan bir sıra irimiqyaslı beynəlxalq enerji layihələrinin təşəbbüskarı və iştirakçısıdır. Belə layihələrdən biri – Cənub Qaz Dəhlizi həm Avropanın enerji təhlükəsizliyi, həm də ikitərəfli və çoxtərəfli formatda Avropa dövlətləri ilə əməkdaşlıq üçün mühüm əhəmiyyət daşıyır. Bolqarıstanın da iştirakçısı olduğu bu layihə reallaşaraq, həmçinin digər Şərqi Avropa ölkələri ilə əməkdaşlıq üçün geniş imkanlar açır. Hazırda Bakı-Tbilisi-Qars dəmir yolu da Avropanı Asiya ilə birləşdirir və ölkələri bir-birinə daha da yaxınlaşdırır.

Beləliklə, 2015-ci ilin martında imzalanmış Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin icrası tərəflər arasında əməkdaşlığın möhkəmlənməsini şərtləndirir, böyük potensiala və bu sahədə mövcud perspektivlərə uyğun olaraq münasibətlərin yüksək səviyyədə inkişafına önəmli təsir göstərir.

Bolqarıstan ilə Azərbaycan arasında dövlətlərarası əlaqələr yarandığı ötən illər ərzində ümumi maraq doğuran bütün sahələr bərabərhüquqlu əməkdaşlıqla, qarşılıqlı hörmət və anlaşma ilə, eləcə də açıq qalan məsələlərin olmaması ilə xarakterizə edilir.

Yeri gəlmişkən, son illərdə Azərbaycan–Bolqarıstan arasında enerji tədarükü ilə yanaşı, siyasi, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq sahəsində də layihələr sürətlə reallaşdırılıb. Hər iki respublikanın dövlət başçısı tərəfindən qarşılıqlı əlaqələrin genişlənməsinin zəruriliyi dəfələrlə vurğulanıb.

Məlumat üçün deyək ki, Bolqarıstan Azərbaycanla birlikdə 1998-ci ildən Avrasiya nəqliyyat dəhlizi layihəsində fəal (TRASECA) iştirak edir. İki dövlət arasında, həmçinin regional təşkilat olan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində də sıx münasibətlər mövcuddur. Bütün bunlarla bərabər, Azərbaycan Bolqarıstanla birgə indiyədək iqtisadi sahələri əhatə edən bir sıra önəmli sənədlər imzalayıb.

Azərbaycanın Bolqarıstanla iqtisadi əlaqələrində enerji tədarükü ilə yanaşı, müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və əczaçılığın inkişafı üçün müxtəlif layihələr gerçəkləşdirilib. Bütün bunlar statistik göstəricilərdə də öz aydın ifadəsini tapıb. Belə ki, təkcə 2022-ci ildə Bolqarıstan Azərbaycanın 28-ci xarici ticarət tərəfdaşı olub. Bu dövrdə iki dost ölkə arasında ticarət dövriyyəsi 325 milyon ABŞ dolları təşkil edib, ikitərəfli ticarətin saldosu 259 milyon ABŞ dolları ilə Azərbaycanın xeyrinə olub.

**V.BİNYATOĞLU,**
**“Xalq qəzeti”**

# Ceyhun Bayramov Litvanın xarici işlər nazirinin müavini ilə görüşüb

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Litvanın xarici işlər nazirinin müavini Mantas Adomenas ilə görüşüb. Bununla bağlı məlumatı XİN yayıb. Məlumatda bildirilib ki, görüşdə Azərbaycan və Litva arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyində duran aktual məsələlər, o cümlədən regiondakı cari vəziyyət müzakirə olunub.**



Nazir C.Bayramov ölkələr arasında ikitərəfli səviyyədə siyasi, iqtisadi, ticarət, enerji təhlükəsizliyi, bağlantılar, mədəniyyət, humanitar və s. sahələrdə, çoxtərəfli səviyyədə isə Avropa İttifaqı (Aİ) çərçivəsində səmərəli əməkdaşlığın mövcudluğunu qeyd edib. O, münasibətlərin inkişafında qarşılıqlı səfərlər və təmasların əhəmiyyətindən bəhs edərək siyasi məsləhətləşmələrin əlaqələrin daha da genişləndirilməsi üçün mühüm mexanizmlərdən biri olduğunu vurğulayıb.

Azərbaycanın XİN rəhbəri postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa və quruculuq işləri, regionda nəqliyyat və kommunikasiyaların açılması, sülh gündəliyinin irəli aparılması istiqamətində göstərilən səylər barədə qarşı tərəfi ətraflı məlumatlandırıb. O, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımların Ermənistanın qeyri-konstruktiv mövqeyi və davamlı təxribatları ilə üzləşdiyini diqqətə çatdırıb. Nazir, həmçinin həmkarını Laçın-Xankəndi yolunda qeyri-qanuni fəliyyət barədə ətraflı məlumatlandırıb, Azərbaycan tərəfindən sərhəd-buraxılış məntəqəsinin təsis edilməsinin şəffaflığa və təhlükəsizliyə təminat verən addım olduğunu vurğulayıb.

Nazir müavini M.Adomenas Litvanın Azərbaycan ilə münasibətlərin daha da inkişaf etdirilməsində maraqlı olduğunu qeyd edib. O, bölgədə sülh və təhlükəsizliyin təmin olunacağına inamını ifadə edib. Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**“Xalq qəzeti”**

# Azərbaycan XİN Ermənistanda “Nemezis”lə bağlı abidə qoyulmasını pislədi

**“Dünən İrəvanda “Nemezis” terror əməliyyatına həsr olunmuş abidənin açılmasını qətiyyətlə pisləyirik. Bu abidənin Ermənistanın aidiyyəti dövlət qurumlarının icazəsi və təsdiqi ilə hazırlanması, habelə açılış mərasimində hakim partiyanın üzvü olan Ermənistan merinin müavini və digər rəsmilərin də iştirak etməsi Ermənistan tərəfindən terrorçuluq siyasətinin təşviq olunması və tarix boyu həyata keçirdiyi terror əməllərinin təbliğatıdır”. Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında əksini tapıb.**

Bəyanatda bildirilib ki, Azərbaycan Demokratik Respublikası və Osmanlı dövlət xadimlərini hədəf alan “Nemezis” terror əməliyyatı zamanı Osmanlı dövlətinin rəsmi şəxsləri ilə yanaşı, 1920-1922-ci illərdə Azərbaycanın keçmiş baş naziri Fətəli xan Xoyski, Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev, Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir, Azərbaycanın keçmiş Baş naziri Nəsib bəy Yusifbəyli qətlə yetirilibilər.

“Hər kəsə bəllidir ki, Ermənistanda dövlət siyasəti səviyyəsində irəlilədilən terrorçuluq, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədərək 24 türk diplomatını qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Ermənistan Azərbaycana qarşı metro və avtobusların partladılması daxil, 30-a yaxın genişmiqyaslı terrorçuluq aktları törədib, mülki əhali terrorçuların hədəfinə alınıb”, - deyə bəyanatda vurğulanıb.

Azərbaycanlılara qarşı Xocalıda soyqırımının törədilməsində ASALA və onun alt-qolları olan “Arabo” və “Aramo” terrorçu qruplarının yaxından iştirak etdiyinin diqqətə çatdırıldığı bəyanatda o da bildirilib ki, Türkiyə diplomatı Kamal Arıkanı qətlə yetirən erməni terrorçu, ASALA üzvü Ambik Sassunyanın Ermənistanda qəhrəmanlaşdırılması, ölkədə nasizmin təbliğinin dövlət siyasətinin tərkib hissəsi olması, SS generalı Njde Qaregin və “Dro” ləqəbi ilə tanınan Drastamat Kanayanın “milli qəhrəman” kimi təbliği, onların adlarının əbədiləşdirilməsi və “Njdeizmin” təbliğatı Ermənistan rejiminin əsl mahiyyətini açıq şəkildə göstərir.

XİN-in bəyanatında Ermənistanın terrorçuluq siyasətinə son qoyulmasının vacibliyi vurğulanmaqla yanaşı, qeyd edilib ki, erməni terrorizmi, ekstremizmi, aqressiv separatizmi və irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinə qarşı birmənalı və ikili standartlardan kənar şəkildə qəti mübarizə aparılmalıdır. “Ermənistanın bu cür addımları, bu ölkənin Azərbaycan və Türkiyə ilə davam edən normallaşma danışıqları ilə bağlı iddia etdiyi “səmimiyyətini” və “xoş iradəsini” ciddi sual altına qoyur. Qeyd edək ki, sülh və barışığa aparan yol cinayət və səhvlərin daha çox tərənnüm edilməsindən deyil, bunların etiraf olunmasından keçir”, - deyə sənəddə bildirilib.

**“Xalq qəzeti”**

# Qadınlar və əqli mülkiyyət: İnnovasiya və yaradıcılıq

**Dünən Əqli Mülkiyyət Agentliyinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə “Qadınlar və əqli mülkiyyət: İnnovasiya və yaradıcılıq” mövzusunda konfrans işə başlayıb. Beynəlxalq Əqli Mülkiyyət Günü münasibətilə keçirilmiş tədbirdə ƏMA-nın İdarə Heyətinin sədri Kamran İmanov tədbirin ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə təsadüf etməsini əlamətdar məqam kimi xarakterizə edib.**



K.İmanov bildirib ki, qadınların gözündə ideyanın da həmişə siması var və bu səbəbdən bəşər kitabının mündəricatı qadınlardır: “Prezident vurğulamışdır ki, “xalqımız çoxəsrlik tarixinin bütün dövrlərində qadını ülviyyətin təcəssümü saymış və ona hər zaman dərin ehtiram göstərmişdir. Azərbaycan qadınları keçmişimizin taleyüklü, həlledici anlarında vəzifələrinin öhdəsindən daim layiqincə gəlmişlər. Bəşər mədəniyyəti xəzinəsinə töhfəmiz olan milli-mənəvi dəyərlərimizin bir bütöv halında qorunub saxlanılmasında onların misilsiz xidmətləri vardır”, - deyə K.İmanov vurğulayıb.

Agentlik sədri qeyd edib ki, ənənəvi mənada “əqli mülkiyyət” ifadəsini işlədərkən intellektual, yaradıcılıq məhsuluna məxsus olan hüquqlardan söhbət açılır. Lakin əqli mülkiyyətin (ƏM) anlayışı və onun dərk edilməsi yenilənir. Çünki bu institutun fəaliyyət dövriyyəsi ənənəvi kontekstdən fərqli olaraq müasir zamanda yeni çağırışlarla rastlaşır. Bunun səbəbi isə, ilk növbədə, cəmiyyətimizin əhəmiyyətli texnoloji dəyişikliklərlə üz-üzə gəlməsidir,

Rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətlərindən və yeniliklərin tətbiqi istiqamətindəki təcrübəsindən, o cümlədən nəzəri məsələlərdən geniş bəhs edən K.İmanov vurğulayıb ki, Avrasiya ölkələri içərisində ilk olaraq ölkəmizdə rəqəmsal üçölçülü (3D) obyektlər üzrə iddia sənədlərinin qəbuluna başlanılıb. Bununla əlaqədar agentlikdə prosesə nəzarət edəcək mütəxəssislər müəyyən edilib və zəruri texniki işlər görülüb.

“Əqli mülkiyyət ilə bağlı siyasətdə təəssüflər olsun ki, qadınlar kişilərlə müqayisədə hələlik geridədirlər və bu fərq tezliklə aradan qaldırılmalıdır. Bu, yalnız mənəvi borc deyil, bugünkü rəqəmli dünyanın inkişafının mütləq şərtidir”, - deyə Kamran İmanov qeyd edib.

Toplantıda dövlətimizin başçısının 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda Əqli Mülkiyyət Agentliyinin qarşısında duran vacib vəzifələr açıqlanıb. Qadınların istənilən millətin insan resurslarının əhəmiyyətli hissəsi olduğu vurğulanıb. Bildirilib ki, gender asimmetriyasının azaldılması qadının rolunu ədalətli səviyyəyə qaldırmaqla yanaşı, iqtisadi inkişafa da səbəb olur.

Konfransın açılışında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, mədəniyyət naziri Adil Kərimli çıxış ediblər. Çıxışlarda Əqli Mülkiyyət Agentliyinin fəaliyyəti yüksək qiymətləndirilib, keçirilən konfransın mövzusunun aktuallığı vurğulanıb.

Daha sonra Əqli Mülkiyyət Agentliyinin Müəllif hüquqlarının qeydiyyatı və hüquq ekspertizası şöbəsinin müdiri Nadirə Bədəlbəyli “Qadın və əqli mülkiyyət: qadın yazıçı, şair və bəstəkar” mövzusunda məruzə ilə çıxış edib.

**Fidan HÜQUQQIZI,**
**“Xalq qəzeti”**

# Azərbaycan vətəndaşlarının Sudandan təxliyəsi üçün tədbirlər görülür

**Sudandakı gərgin vəziyyətlə əlaqədar bu ölkədəki daimi və müvəqqəti yaşayan vətəndaşlarımızın təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan hökuməti tərəfindən müvafiq tədbirlər həyata keçirilməkdədir. Məlumatı ölkəmizin Xarici İşlər Nazirliyi yayıb.**

Məlumatda bildirilib ki, hazırda Sudanda yerləri müəyyənləşdirilmiş 26 Azərbaycan vətəndaşının qardaş Türkiyənin dəstəyi, üçüncü ölkə vasitəsilə təxliyəsi həyata keçirilməkdədir. Həmçinin onların etibarlı səyahət sənədləri olmayanlarının ölkəmizin aidiyyəti diplomatik nümayəndəlikləri vasitəsilə sənədləşdirilməsi işi təmin ediləcək.

Xarici İşlər Nazirliyi Sudandakı vəziyyətlə əlaqədar bu ölkədə daimi və müvəqqəti yaşayan Azərbaycan vətəndaşlarına müraciət edərək onlardan hərbi qüvvələrin cəmləşdiyi ərazilərə səyahət etməməyi, ehtiyac olmadığı təqdirdə evlərdə və ya güvənli yerlərdə qalmaları, habelə vətəndaşlarımıza bu ölkəyə səyahətdən çəkinmələrini tövsiyə edir.

Qeyd edək ki, Sudanda yaşayan vətəndaşlarımızdan təxliyə və ya hər hansı çətinliklə bağlı Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyi ilə əlaqə saxlamaları xahiş olunur.

Azərbaycan Respublikasının Misir Ərəb Respublikasındakı səfirliyinin qaynar xətti: +201010271387

**“Xalq qəzeti”**

# Mina partlayışı – zərərçəkən var

**Tərtər rayonunun işğaldan azad edilmiş Suqovuşan ərazisində mina partlayışı baş verib. Hadisə nəticəsində Beynəlxalq Avrasiya Mətbuat Fondunun sürücüsü, 1990-cı il təvəllüdlü Babaşov Xəzər Tarıyel oğlu xəsarət alıb. Bu barədə məlumatı Minatəmizləmə Agentliyi (ANAMA) yayıb. Baş Prokurorluqdan hadisə ilə bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparıldığı bildirilib.**



Faktı Daxili İşlər Nazirliyi də təsdiqləyib. Nazirliyin məlumatında qeyd edilib ki, zərərçəkən X.Babaşov ANAMA ilə müqavilə əsasında çalışan podratçı şirkətin nümayəndəsidir. Məlumatda, həmçinin zərərçəkənin sağ ayağının topuqdan amputasiya olunduğu diqqətə çatdırılıb. O, Tərtər Rayon Mərkəzi xəstəxanasına yerləşdirilib, həyati təhlükəsi yoxdur.

Onu da bildiririk ki, 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan bu günə qədər Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla, ümumilikdə, 295 nəfər mina qurbanı olub. Onlardan 51-i həyatını itirib, 244 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

**“Xalq qəzeti”**

# Sərhəd-buraxılış məntəqəsi içməli su ilə təmin edilib

**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Laçın-Xankəndi yolunun başlanğıcında qurulan sərhəd-buraxılış məntəqəsi 26 aprel 2023-cü il tarixində içməli su ilə təmin edilib. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin əməkdaşları tərəfindən Həkəri çayının yatağında kaptaj qurğusu yaradılıb, buradan sərhəd-buraxılış məntəqəsinə qədər 200 metr uzunluğunda polietilen borularla daşıyıcı su xətti çəkilib və hidrofor nasosu quraşıdırılıb. Hazırda sərhəd buraxılış məntəqəsi fasiləsiz içməli su ilə təmin edilir.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi işğaldan azad olunmuş ərazilərdə strateji obyektlərin dayanıqlı içməli su təminatı məqsədilə Şuşa, Laçın, Kəlbəcər şəhərlərində, Zəngilan rayonu və Hadrut qəsəbəsində fasiləsiz xidmət təşkil edib.

**“Xalq qəzeti”**

# Türkiyə avtomobil istehsalı ölkəsinə çevrilir

## "Togg" 60 illik xəyalların gerçəkləşməsidir

**Türkiyə avtomobil sənayesi son illər dinamik inkişaf yolu ilə inamla irəliləyir. Bu, qardaş ölkənin minik avtomobillərinin ixrac statistikasında da diqqət çəkir. Belə ki, Avtomobil Sənayesi İxracatçıları Birliyinin məlumatına görə, hazırda Türkiyə istehsalı olan avtomobillər 86 dövlətə tədarük edilir və ixrac həcmi 2 milyard 625 milyon dolları ötür.**




Yeri gəlmişkən, burada bir məqamı xüsusi vurğulamaq istərdik. Türkiyə təkcə avtomobil satışı ilə məşğul olmur, həmçinin istehsal prosesi ilə bağlı çox böyük klaster yaradır, yardımçı təsərrüfatlar, xidmət sahələri formalaşdırır və bütün bunlar isə nəhəng istehsal sahələrinin qurulmasını şərtləndirir. Təbii ki, bu zaman müasir texnoloji yeniliklər və keyfiyyət amili diqqətdə saxlanılır. Belə bir şərait isə şübhəsiz ki, həm ölkənin avtomobil sənayesinin inkişafını sürətləndirir, başqa sözlə, iqtisadiyyatını gücləndirir, həm də əhalinin məşğulluğuna önəmli təsir göstərir.

Türkiyədə avtomobil sənayesinin inkişafından danışarkən deyə bilərik ki, artıq bu sahədə yeni mərhələ başlanıb, ölkə elektromobil istehsalçıları sırasına daxil olub. Bu, yerli istehsal olan "Togg" elektromobillərinin istehsalına start verilməsi ilə təsdiqlənib.

Xatırladaq ki, "Togg"un kütləvi istehsalı Bursa vilayətinin Gemlik rayonunda inşa olunan zavodda gerçəkləşib. Müəssisənin təməli 2020-ci ildə qoyulub. Açılış mərasimi isə 2022-ci il oktyabrın 29-da reallaşıb. Dövlətimizin başçısı bu əlamətdar tarixi hadisədən bir neçə gün sonra – noyabrın 2-də Türkiyə lideri Rəcəb Tayyib Ərdoğana zəng edərək, ona "Togg"un kütləvi istehsala başlanılması münasibətilə təbriklərini çatdırıb.

Məlumat üçün bildirək ki, Türkiyənin mobillik sahəsində xidmət göstərən qlobal texnologiya markası sayılan zavod ölkənin aparıcı şirkətləri olan "Anadolu Group", "BMC", "Root Group", "Turkcell", "Zorlu Holding" və "TOBB" ilə birlikdə elektromobilin istehsalına başlayıb. Müəssisənin inşasına 1 milyard dollardan çox investisiya yatırılıb. "Togg" zavodunun tikintisində ümumilikdə 9 min 700 nəfər iştirak edib. Burada montaj mərkəzi, prototip inkişaf, istifadəçi sınaq parkı kimi bir çox bölümlər yaradılıb. Müəssisənin illik istehsal gücünün 175 min ədədə çatdığda 4 min 300 nəfərin işlə təmin olunması planlaşdırılıb.

İlkin hesablamalara görə, bu layihənin yaratdığı ekosistem 15 il ərzində Türkiyə ümumi milli məhsuluna 50 milyard avro, cari hesab kəsirinə 7 milyard avro töhfə verəcək, birbaşa və ya dolayı yolla təxminən, 20 min adamın işlə təmin olunmasına şərait yaradacaq.

Onu da qeyd edək ki, müəssisədə il ərzində 175 min avtomobil istehsal olunacaq. 2030-cu ilə qədər isə istehsal 1 milyonu ötəcək.

Qeyd edək ki, "Togg" elektromobilləri "Pamukkale", "Anadolu", "Gemlik", "Kula", "Oltu" və "Kapadokya" olmaqla altı rəngdə istehsal olunur. Avtomobil iki modifikasiyada – 200 və 400 at gücündə elektrik mühərriki ilə buraxılır. Ən güclü versiya 0-dan 100 kilometr-saat sürəti 4,8 saniyəyə yığa bilir. Elektromobilin maksimal gediş məsafəsi isə 500 kilometrə yaxındır. Avtomobillərin hazırlanması zamanı onların ətraf mühit üçün tam zərərsiz olmasına xüsusi diqqət yetirilib.

Türkiyənin 60 illik xəyalının reallaşması kimi qiymətləndirilən yerli avtomobil "Togg"un "T10X" modeli üçün sifariş hüququ qazanan 20 min əsas və 20 min ehtiyat qalibin siyahısı da artıq açıqlanıb. Püşkatma nəticəsində "T10X" modelini almaq hüququ qazanan şəxslərin siyahısı "Togg"un rəsmi internet saytında elan edilib. Bu modeli əvvəlcədən sifariş verən 177 min 467 nəfər arasında 20 min nəfər yerli avtomobil sahibi olub.

Martın əvvəlindən isə "Togg"un "T10X" modeli üçün ilkin sifariş prosesinə başlanılıb. Elektromobilin satışına ilk gündən böyük maraq göstərilib. "Togg T10X" modeli üçün ilk 24 saatda 22 min 150 sifariş qəbul olunub.

Bu il aprelin 3-də "Togg" elektromobilinin "T10X" modelinin birincisi Prezident Rəcəb Tayyib Ərdoğana və xanımı Əminə Ərdoğana, ikincisi isə aprelin 4-də dövlətimizin başçısı İlham Əliyevə təqdim olunub. Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan "Togg" elektromobilinin Azərbaycan Prezidentinə təqdim olunması ilə bağlı paylaşım edib.

Türkiyə Prezidenti paylaşımında bildirib: "Qardaşım İlham Əliyev də Türkiyənin qüruru "Togg"u təhvil aldı. Xeyirli olsun. Allah gözəl günlərdə istifadə etməyi nəsib etsin, qardaşım".

Prezident İlham Əliyev aprelin 4-də Türkiyənin sənaye və texnologiya naziri Mustafa Varankı qəbul edərkən qardaş ölkədə son illərdə həm müdafiə, həm də mülki sənaye sahələrində yüksək texnoloji məhsulların istehsal olunduğunu qeyd edib. Ölkə rəhbəri, eyni zamanda, həmin məhsulların, eləcə də "Togg" elektromobilinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türkiyə xalqının zəkası, istedadı və əməyi nəticəsində ərsəyə gəldiyini vurğulayıb, belə bir elektromobilin ikincisinin ölkəmizdə olmasını dostluq və qardaşlıq münasibətlərimizin təzahürü kimi dəyərləndirib, eyni zamanda, "Tviter"dəki paylaşımında bildirib: "Təşəkkür edirəm, əziz qardaşım. Amin! "Togg" Sizin liderliyiniz altında qardaş Türkiyənin elmi-sənaye potensialının inkişafının daha bir bariz nümunəsidir".

Qeyd edək ki, ekspertlər tərəfindən "Togg"un istehsalı Türkiyənin 60 illik xəyalının həyata keçirilməsi kimi qiymətləndirilir.

*V.BAYRAMOV, "Xalq qəzeti"*

**Rusiya-Ukrayna müharibəsi dünyanın başağrısına çevrilib. Bu müharibə dünyanı faktiki olaraq iki cəbhəyə ayırıb və bu kontekstdə bəzən "Üçüncü Dünya müharibəsi" haqqında da söhbət açılır. Bu məsələ dünən BMT Təhlükəsizlik Şurasının Rusiyanın sədrliyi ilə keçən 77-ci sessiyası çərçivəsində də qabardılıb. Hətta RF XİN başçısı Sergey Lavrov da bu barədə danışarkən təəccübünü gizlətməyib.**

# Ukrayna NATO-ya gəlsin, gəlməsin?!..

## İki slavyan ölkəsinin müharibəsi dünyanı iki cəbhəyə bölüb



O, iclasdan sonra mətbuat konfransında jurnalistlərin bununla bağlı sualına cavab verərkən bildirib: "Üçüncü Dünya müharibəsi kimə lazımdır? Biz bir yerdə yaşayırıq. İndi Üçüncü Dünya savaşından danışdılar. Kimə lazımdır bu?" – deyə RF XİN başçısı qeyd edib.

Amma Ukraynada döyüşlər davam edir. Eyni zamanda, dünyanın qarşı duran qüvvələri – Qərb və Rusiya bir-birinin məğlubiyyəti üçün var gücü ilə çalışırlar. Ərazisində müharibə getməsinə baxmayaraq, artıq Ukraynanın NATO-ya qəbulunun reallaşması istiqamətində müxtəlif bəyanatlar səsləndirilir. Alyansın Baş katibi Yens Stoltenberq bir neçə gün əvvəl bəyan etmişdi ki, bütün üzv ölkələr Ukraynanın təşkilata daxil olmasını dəstəkləyir. Amma xeyli müddət əvvəl ərazisində münaqişə olan hər hansı ölkənin Şimali Atlantika Alyansına daxil olmasının qeyri-mümkünlüyü haqqında danışılırdı.

Bundan əlavə, Avropa Birliyinin xarici siyasət və təhlükəsizlik üzrə sabiq ali komissarı Xavyer Solana (o, həm də NATO-nun baş katibi olub) təxminən on-on beş il əvvəl Ukraynada jurnalistlərin belə bir sualına cavab vermişdi: "Ukrayna nə vaxt Avropa Birliyinin üzvü olacaq?" Solana demişdi: "Türkiyədən sonra". "Bəs Türkiyə nə vaxt təşkilata üzv olacaq" sualına isə o, belə cavab vermişdi: "Heç vaxt".

Amma artıq elə bir zaman gəlib çatıb ki, dövlətçiliyini tamamilə itirmək təhlükəsi qarşısında qalmış Ukrayna tərəddüdsüz NATO-ya üzv qəbul edilir. Dünən ABŞ da məsələyə münasibət bildirib. Ağ evin rəsmi nümayəndəsi Karin Jan-Pyer bildirib ki, ABŞ NATO-nun "açıq qapı" siyasətini dəstəkləyir və Ukraynanın üzvlüyü ilə bağlı təşkilat özü qərar qəbul edəbilər.

Birləşmiş Ştatlar rəsmisi jurnalistlərin "ABŞ lideri Co Bayden prezidentlik müddətinin sonuna qədər Ukraynanı NATO sıralarında görmək istəyirmi" sualına cavabında deyib: "Bu barədə qərarı NATO üzrə müttəfiqlər və təşkilata üzv olmağa can atan ölkələr qəbul etməlidir".

Məsələ bundadır ki, Stoltenberqin həmrəylik və dəstək barədəki bəyanatına baxmayaraq, NATO üzrə müttəfiqlər arasında Ukraynanın üzvlüyü ilə bağlı vahid fikir yoxdur. Bu günlərdə Slovakiya parlamentinin spikeri bu barədə danışaraq bildirib ki, hazırda Ukraynaya NATO-ya üzvlüklə bağlı ümid vermək məsuliyyətsizlikdir, indi Kiyev yalnız alyansa daxil olmaq üzrə prosesə başlaya bilər.

Macarıstan da həmişə bu məsələyə birmənalı münasibət bildirməyib. Bu il aprelin 21-də Baş nazir Viktor Orban NATO-nun Baş katibi Yens Stoltenberqin Ukraynanın alyansa üzvlüyü ilə bağlı fikirlərinə bir sözlə reaksiya verib. O, "Politico" nəşrinin "Alyans lideri müharibə dövründə ilk səfəri zamanı Ukraynaya "sizin yeriniz NATO-dur" deyib" başlıqlı xəbərini tvitterdə "Nə?!" reaksiyası ilə paylaşıb.

Macarıstan həm də bir çox NATO ölkələrindən fərqli olaraq Ukraynadakı müharibəyə görə Rusiya ilə əlaqələri kəsməkdən imtina edib. V.Orban hələ fevral ayında çıxışı zamanı Rusiya-Ukrayna savaşını "iki slavyan ölkəsinin bir-birinə qarşı müharibəsi" kimi təsvir etmişdi: "Bu onların müharibəsidir, bizim yox", – deyə Orban əlavə etmişdi.

Bu günlərdə Macarıstan parlamentinin vitse-spikeri Doru Duro da Ukraynanın NATO-ya üzvlüyünün Rusiyanın icazəsindən sonra mümkün olacağını açıqlayıb. Bu isə Ukrayna Prezidenti Ofisi rəhbərinin müşaviri Mixail Podolyakın qəzəbinə səbəb olub. M.Podolyak bununla bağlı ölkə telekanallarından birinə müsahibəsində bildirib: "Niyə Macarıstan ölkəmizin suverenliyinə və ya bizim seçimimizə münasibət bildirir? Yaxud NATO-nun Baş katibi Yens Stoltenberq vasitəsilə bütün, tamamilə bütün ölkələrin (Macarıstan istisna) Ukraynanın mütləq üzv olması ilə bağlı yekdil olduğunu bildirən alyans haqqında nəsə deyir? Rusiyadan hansı icazəni almalıyıq? Rusiyadan yalnız bir icazə almalıyıq - Rusiyanın olmaması üçün... Yəni biz bunu silahlı qüvvələrimizlə almalıyıq, Rusiyaya başa salaq ki, belə dövlətlər rəqabət qabiliyyətli deyillər və bu formada mövcud ola bilməzlər".

Ukraynanın xarici işlər naziri Dmitri Kuleba da dünən bəyan edib ki, NATO ölkələri bəhanə axtarmağı dayandırmalı və Ukraynanın Şimali Atlantika Alyansına qəbul edilməsinin alternativinin olmadığını etiraf etməlidir: "Bəhanələri bir kənara qoymağın və nəhayət, etiraf etməyin vaxtıdır ki, əgər NATO-nun məqsədi Avro-Atlantik birliyinin təhlükəsizliyini təmin etməkdirsə, Ukraynanı qəbul etməkdən başqa alternativ yoxdur. Mən NATO-nun Ukrayna ilə bağlı hazırkı öhdəliyinə şübhə etmirəm. Alyans üzvləri Rusiyanın tammiqyaslı işğalı başlayandan Kiyevə həyati əhəmiyyətli yardımlar göstəriblər. Lakin Ukrayna və Avro-Atlantik regionun uzunmüddətli təhlükəsizliyinə gəldikdə, mən NATO-nun strategiyasına şübhə ilə yanaşıram".

*Paşa ƏMİRCANOV, "Xalq qəzeti"*

# Bayden prezident kürsüsünü tərk etmək istəmir

**ABŞ Prezidenti Co Bayden iki gün əvvəl rəsmi olaraq yenidən prezidentliyə namizədliyini irəli sürdüyünü açıqlayıb. O, video-müraciətində seçiciləri ona administrasiyasının iki il əvvəl başlatdığı "işi bitirmək" üçün daha çox vaxt verməyə çağırıb. Bu barədə "Amerikanın səsi" radisou məlumat yayıb.**



Xatırladaq ki, Bayden 2020-ci il seçkilərində əsas siyasi rəqibi, respublikaçı prezident Donald Trampı məğlub etmişdi. D.Tramp seçkilərin nəticələrini qəbul etməmiş, seçki saxtakarlığı ittihamları irəli sürmüşdü.

D.Trampın bir çox tərəfdarları 2021-ci il yanvarın 6-da Konqresin seçkilərin nəticələrini təsdiqləmək üçün toplaşdığı vaxt Kapitoli binasına zorla daxil olmuşdu. Maraqlıdır ki, Baydenin seçki komandası onun yenidən prezident seçilməklə bağlı planlarını açıqladığı zaman Tramp tərəfdarlarının Kapitoliyə hücumunu əks etdirən video görüntüləri paylaşıb.

Bayden həmin görüntülər fonunda ölkə vətəndaşlarına müraciətlə deyib: "Hər bir nəsil amerikalı demokratiyanı müdafiə etməli olduğu bir anla üzləşib. Şəxsi azadlıqları müdafiə edin. Səs vermək haqqını və bizim vətəndaş hüquqlarımızı müdafiə edin".

Ağ evin hazırkı sahibi sonra respublikaçıların aborta çıxışı məhdudlaşdırmaq, sosial təminatı azaltmaq, seçki hüquqlarını məhdudlaşdırmağa çalışdıqlarını söyləyib.

Qeyd etmək lazımdır ki, hələ iki il əvvəl inauqurasiya olunduğu zaman ölkənin ən yaşlı dövlət başçısı olan C.Bayden yeni seçki kampaniyasından öncə yaşı ilə bağlı narahatlıqlara məhəl qoymayıb. Yenidən seçilsə, ikinci vəzifə müddətinə başladığı zaman onun 82 yaşı olacaq.

*"Xalq qəzeti"*

# Sudan əhalisi ölkəni tərk edir

**BMT-nin Baş katibi Antonio Quterreş təcili olaraq Sudanda qan tökülməsini dayandırmağa çağırıb. Onun sözlərinə görə, bu ölkədə münaqişə döyüş meydanında həll olunmamalı, liderlər isə xalqın maraqlarını üstün tutmalıdırlar. Məlumatı "Anadolu" verib.**



Baş katib deyib ki, münaqişə uzandıqca dağıdıcı nəticələr verəcək. Hazırda Sudan yeddi ölkə ilə həmsərhəddir ki, onlar da münaqişə və sarsıntılardan əziyyət çəkir.

Sudanın əhalisi isə hərbi əməliyyatlar zonasını tərk edərək təhlükəsiz regionlara keçmək üçün ölkədə ABŞ-ın vasitəçiliyi ilə əldə olunmuş müvəqqəti atəşkəsdən istifadə etməyə çalışır. Ölkədə fəaliyyət göstərən humanitar təşkilatlar isə əsasən xarici yardımlardan asılı olan Sudanda vəziyyətin gündən-günə ağırlaşdığını bildirirlər.

Sudanın 46 milyonluq əhalisinin üçdə birinin humanitar yardıma ehtiyacı var. Lakin ölkədəki humanitar təşkilatların bir çoxu öz fəaliyyətini dayandırmaq məcburiyyətində qalıb, onlarca xəstəxana isə bağlanıb. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına görə, qonşu ölkələrə sığına biləcək on minlərlə insanı qəbul etmək üçün hazırlıq görülür.

Qeyd edək ki, aprelin 15-də Merove və Xartum şəhərlərində xüsusi təyinatlı qüvvələrlə Sudan ordusu arasında toqquşmalar başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı indiyə qədər davam edən döyüşlər nəticəsində aralarında dinc sakinlərin də olduğu 500-ə yaxın insanın həlak olduğunu, 4 mindən çox insanın isə yaralandığını bildirib.

Afrikanın ən böyük üçüncü ölkəsi olan Sudanda böhranın aradan qaldırılması ilə bağlı danışıqlara çağırışlar cavabsız qalır. Diplomatların və xarici vətəndaşların ölkəni tərk etməsi vəziyyətin ağırlaşmasının əlaməti hesab olunur. BMT yaxın günlərdə 270 min sudanlının qonşu ölkələrə, əsasən də Çad və ya Cənubi Sudana sığınacağını proqnozlaşdırır.

*"Xalq qəzeti"*

# Akar: Pilotlarımız Türk Silahlı Qüvvələrinin qürur mənbəyidir



**"Səmalarda güvənin təcəssümü olan pilotlarımız istedadları, hazırlığı, nizam-intizamı və üstün məsuliyyət hissi ilə Türk Silahlı Qüvvələrinin və millətimizin qürur mənbəyidir".**

Bu sözləri Türkiyə Milli müdafiə naziri Hulusi Akar, Dünya Pilotlar Günü münasibəti ilə etdiyi təbrikdə bildirib: "Başda Türkiyə Silahlı Qüvvələrində olan qəhrəman və fədakar pilotlarımız olmaqla bütün pilotlarımızı "Dünya Pilotlar Günü" münasibəti ilə ürəkdən təbrik edirəm. Qəhrəman pilotlarımız səmalarımızı qorumaqdan terrorla mübarizə çərçivəsində həyata keçirilən əməliyyatlara, dənizlərimizdə hüquq və mənafelərimizin qətiyyətlə qorunmasından həm ölkədaxili, həm də hərbi əməliyyatların icrasına qədər bütün vəzifələrini böyük uğurla yerinə yetirirlər".

Hulusi Akar onu da bildirib ki, Türkiyənin milli müdafiə sənayesinin təmin etdiyi imkanlarla, yüksək ixtisaslı pilotlarla ölkənin Hərbi Hava Qüvvələri daha güclü, səmaları isə təhlükəsiz olacaq.

*"Xalq qəzeti"*

# Çin və Sinqapur birgə dəniz təlimləri keçirəcək



**Çinin Müdafiə Nazirliyi Çin və Sinqapurun genişmiqyaslı birgə dəniz təlimi keçirəcəyini açıqlayıb. Xəbəri "Associated Press" agentliyi yayıb.**

Qeyd etmək lazımdır ki, bu açıqlama ABŞ Sakit Okean Hərbi Hava Qüvvələrinin komandanının Sinqapurun müdafiə naziri ilə hərbi təlimlərdə genişləndirilmiş əməkdaşlığı müzakirə etmək üçün görüşməsindən bir neçə gün sonraya təsadüf edir.

Çin Müdafiə Nazirliyindən verilən məlumata görə, Çin Xalq Azadlıq Ordusunun donanması aprelin sonundan mayın əvvəlinə qədər Sinqapur ətrafında keçiriləcək təlimlər üçün "Yulin" freqatı və "Chibi" minaaxtaran gəmisini göndərəcək.

Sinqapur mart ayında Tailandda ABŞ qoşunları ilə böyük "Cobra Gold" təlimlərində iştirak edib. Nazirlik, həmçinin gələn ay Sinqapurda keçiriləcək IMDEX Asiya müdafiə sərgisində Çin Hərbi Dəniz Qüvvələrinin nümayəndələrinin də iştirak edəcəyini açıqlayıb.

Çin və Sinqapur daha əvvəl Cənubi Çin dənizində 2021-ci ildəki çoxsaylı birgə təlimlər də daxil olmaqla dəniz təlimləri keçirib.

*"Xalq qəzeti"*

**Mir Cəlal – 115**

# Duyğu və düşüncələrimizin ədəbi tərcümanı

**O taylı-bu taylı Azərbaycanın görkəmli şəxsiyyətlərindən sayılan Mir Cəlal Paşayevi hələ məktəbli ikən onun Baharı və Mərdanı ilə tanımışıq. Qeyrətli Sonasının məşhur "İtə ataram, yada satmaram" deyimi isə öyrəndiyimiz ilk zərb-məsəllərdən olub. Beləcə, böyük yazıçı özünün ədəbi manifesti ilə hər kəsi baharı sevməyə, mərdanə olmağa, qızları sonalar kimi, oğlanları isə qartallar kimi sevgi qanadları ilə uçmağa səsləyib.**



Ötən əsrin 78-ci ilində Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinə yenicə qəbul olunmuşduq və "Ədəbiyyatşünaslığa giriş" fənnini tədris edən kafedra müdiri, professor, Əməkdar elm xadimi Mir Cəlal müəllimin dərsinin nə vaxt başlanacağını intizarla gözləyirdik. Nəhayət, həmin gün, həmin saat gəlib yetişdi. Amma Mir Cəlal gəlmədi. Auditoriyaya daxil olan gənc müəllim Zahirə Salmanova professorun azca nasaz olduğunu, hələliksə dərslərin ona həvalə edildiyini bildirdi. Bundan bir qədər məyus olsaq da, sakitcə mühazirə dinləməkdən başqa çarəmiz qalmadı. Zahirə xanım Mir Cəlalın yetirməsi idi, dərsləri ustadının adına layiq şəkildə keçir, məqam düşdükcə onun elmi və bədii yaradıcılığı haqqında bizə maraqlı məlumatlar verirdi.

Təəssüf ki, həmin il sentyabrın 28-də 70 yaşlı böyük pedaqoq və ədibin vəfatı xəbəri gəldi. "Dirilən adam", "Bostan oğrusu", "Gözün aydın", "Bir gəncin manifesti", "Yaşıdlarım", "Vətən hekayələri", "Həyat hekayələri", "Gülbəsləyən qız" və sair gözəl kitabların, iki cilddə "Seçilmiş əsərlər"in müəllifi əbədiyyətə qovuşdu.

Böyük ədib, pedaqoq və insanpərvər şəxsiyyət olan Mir Cəlal ömrü boyu sovet ideologiyasına deyil, ədəbiyyata xidmət edib. Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin davamçısı olub. "Yolumuz hayanadır?" əsərində adları o zamana qədər tabu sayılan iki böyük tarixi şəxsiyyətin – Əlibəy Hüseynzadə və Nəriman Nərimanovun "ədəbi reabilitəsi"nə öz töhfəsini verib, həm də roman kimi geniş oxucu auditoriyasına malik bir janrda. Mir Cəlalın fərqli keyfiyyətlərindən birini də onun əsl dostcanlı insan olması təşkil edib. Səməd Vurğun, Həmid Araslı və Süleyman Rəhimovla daha çox dostluq edib.

Bu dostluq onların ailələrini də bir-birinə yaxınlaşdırmışdı. Çox vaxt istirahətə də birgə gedərdilər. Görkəmli şəxsiyyətlərin dostluğu da səmimi və sarsılmaz olur.

Bir insanın ömrü onun haqqında xatirələr söyləndikcə davam edir. Mir Cəlal məhz həmin insanlardandır. Onun tələbəsi, rəhmətlik yazıçı-ssenarist Nahid Hacızadənin yazdığına görə, Mirzə Cəlilin "söz ən böyük yadigardır" deyimi Mir Cəlalın dilindən düşməzdi. İnamla demək olar ki, ədib özü də sözünü ən böyük yadigar kimi qoyub gedənlərdən oldu.

Daha bir tələbəsi – mərhum professor Xeyrulla Əliyev də ondan məhəbbətlə söz açıb: "İndi qəribə görünsə də, o dövrdə ali məktəblərdə dərsə davamiyyət jurnalları rus dilində yazılırdı. Bu səbəbdən də "Əliyev" familiyası "Aliyev" olurdu. Sanki buna etiraz əlaməti olaraq Mir Cəlal müəllim də, Məmmədhüseyn Təhmasib də, Abbas Zamanov da auditoriyada heç kimin adını həmin jurnaldan oxumaz, tələbələrdən kimin gəlmədiyini qrup nümayəndəsindən soruşardılar. Mir Cəlal müəllim elə sadə danışırdı ki, mən onun mühazirəsini yazmağa ehtiyac duymurdum, eyni zamanda, elə fikirlər söyləyirdi ki, onları yazmaya bilmirdim. Mir Cəlal müəllimin fikrincə, hər yazıçıdan jurnalist olmaz, yaxşı jurnalist isə yazıçı ola bilər. O, tələbələri yaradıcılığa ruhlandırırdı. Biz onun dərslərini səbirsizliklə gözləyirdik".

Xalq şairi Nəriman Həsənzadənin xatirələri də ədibin işıqlı obrazını gözəl tamamlayır: "Universitet mənim gəncliyim, tərcümeyi-halımın bir hissəsidir. Mən orada böyük yazıçı, böyük alim Mir Cəlal Paşayevi gördüm, ömürlük sevdim, o mənim mənəvi atam oldu. Mir Cəlalın özü mənim üçün ayrıca bir universitet idi. Onun kafedrası ayrıca "Yazıçılar İttifaqı" idi... Mir Cəlal müəllim həqiqətən peyğəmbər təbiətli insan idi. Xeyirxahlıq onun canında, qanında idi. Kimini işə düzəldər, kiminin mənzil problemini həll etməyə çalışar, kiminin yazısı haqqında xoş sözlər deyərək onu ruhlandırardı. Ailəsini də, tələbələrini də eyni dərəcədə çox sevərdi. Birində ata, o birində də müəllim kimi öz borcunu yerinə yetirərdi. Mir Cəlalın zəkası, ürəyi, ailəsi bir harmoniya təşkil edirdi. Sadə yaşayırdı, amma alicənab idi. Asta addımları var idi, amma şax yeriyirdi. Çox danışmazdı, amma dediyi söz yadda qalardı.

Akademik Nizami Cəfərov özünün "Mir Cəlalın milli idealları" (Bakı–2018) adlı kitabında yazır ki, bu əsasda ədibin mənsub olduğu xalqın milli tərəqqidən milli müstəqilliyə keçidi kimi fundamental bir proseslə bağlı mövqe-mülahizələri dayanır. "Mir Cəlalın milli tərəqqidən başlayıb milli müstəqilliyə gedən ideallarının üç mərhələsi var: 1) milli tərəqqi, 2) milli müstəqillik və 3) Azərbaycanın Şimalı ilə Cənubunun milli bütövlüyü".

Deyildiyi kimi, onun bir sıra əsəri xalq üçün kamillik, gənclik üçün mənəvi tərbiyə örnəyidir. Böyük yazıçı-pedaqoq kimi ad-san qazanmış, cild-cild əsərlər yazmış, orden və medallarla təltif edilmişdir. Amma buna baxmayaraq, "Şah əsəriniz hansıdır?"- deyə soruşulanda iftixarla "həyatımda yaratdığım ən böyük əsər ailəmdir", - deyərmiş. Ailəsinin "şah əsər" statusu qazanmasında ona ən böyük dayaq isə həyat yoldaşı Püstə xanım olub. Onlar övladlarına yüksək təhsil və tərbiyə veriblər. Övladları da valideynlərinin adını həmişə doğrultdublar. Dünyaca məşhur akademik Arif Paşayev Milli Aviasiya Akademiyasının rektorudur. Azərbaycanın ABŞ-dakı ilk səfiri, hazırda Milli Aviasiya Akademiyasının rektoru olan Hafiz Paşayevin diplomatik fəaliyyəti ilə bağlı yazdığı xatirə kitabına ata ruhuna ehtiram olaraq "Bir səfirin manifesti" adını qoyub.

Yazıçının qızı, BDU-nun kafedra müdiri professor Ədibə Paşayeva bu yaxınlarda BDU-da təşkil olunmuş "Mir Cəlalın insanlıq fəlsəfəsi" adlı beynəlxalq elmi seminardakı çıxışında qeyd edib ki, Mir Cəlalın 115 illik yubiley tədbirlərinin bu universitetdən başlanması təsadüfi deyil. Çünki BDU Mir Cəlal üçün doğma məkan idi. XX əsr Azərbaycan ədəbiyyatının böyük nümayəndəsi olan Mir Cəlalın zəhmət, istedad üzərində qurulan həyatı, fəaliyyəti gənclər üçün nümunə sayılır. Ölkəmizin ədəbi və elmi ictimaiyyəti yubiley münasibətilə neçə-neçə yaddaqalan tədbirlər keçirib.

...İçərişəhərdə bir mədəniyyət ocağı – "Ədibin Evi" adlı Ədəbiyyata Dəstək Fondu fəaliyyət göstərir. Bu məkan Mir Cəlalın gənclik illərində yaşadığı ünvanda yaradılıb. "Ədibin Evi"nin qapıları qələm əhlinin, yazıçının irsi ilə maraqlanan hər kəsin üzünə açıqdır. "Ədibin Evi" Fondu fəaliyyət göstərdiyi altı ildə burada Azərbaycan ədəbiyyatını, tarixini, mədəniyyətini, ədəbi irsini tədqiq və təbliğ edən bir çox tədbirlər həyata keçirib. Elə bugünlərdə Mir Cəlal adına 3-cü hekayə müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimi olub.

Göründüyü kimi, illər ötsə də, Mir Cəlalın ürəklərdə ucaltdığı abidə özünün əzəmətini qoruyub saxlayır.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

## Gəncə Şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi

*Gəncə şəhərində yolların əsaslı təmiri işlərinin satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 2 000 (iki min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər (əlaqələndirici şəxs- Hüseynalı Mehtizadə, telefon +994 55 400 94 89; e-mail: office@mktib.az).

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**H/h - AZ58AZRT38060019440017830004**
**VÖEN-2300336431**
**Bank – "AZƏRTÜRK BANK" ASC-nin Gəncə filialı**
**Kod - 210005**
**VÖEN - 9900006111**
**M/h - AZ41NABZ01360100000000003944**
**S.W.İ.F.T: AZRTAZ22**

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət və iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış ( 2023-cü il aprelin 26-dan sonrakı dövr);
- iddiaçının fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti - müvafiq orqan tərəfindən təqdim edilməklə əvvəlki il üzrə olmalıdır;
- malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- nizamnamənin notarial qaydada təsdiq olunmuş surəti (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- qeydiyyatdan keçdiyi ölkənin notarial qaydada təsdiq olunmuş sənədlərinin surətləri (2023-cü il aprelin 26-dan sonrakı dövr );
- Rekvizitlər;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasının notarial qaydada təsdiq olunmuş sənədinin surəti (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məktubun əsli və ya notarial qaydada təsdiq olunmuş surəti (2023-cü il aprelin 26-dan sonrakı dövr);
- satınalma müqaviləsini bağlamaq səlahiyyəti olması barədə imza səlahiyyəti olan şəxsin (əgər təsisçi direktor deyilsə) əmrinin surəti;
- iddiaçının işlərin həyata keçirilməsi üçün maliyyə imkanlarının olması barədə audit hesabatı (əgər varsa);
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (son 3 il (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək) ərzində ümumi məbləği 2 milyon manatdan az olmayan, oxşar işi əhatə edən (oxşarlıq layihə və texniki spesifikasiyalarda təsvir edilən fiziki ölçüyə, mürəkkəbliyə, metodlara, texnologiyaya və digər xüsusiyyətlərə əsaslanmalıdır) baş podratçı kimi ən azı iki sifarişi qənaətbəxş şəkildə icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər, son üç il (2019-cu il yanvarın 1-dən 2022-ci il dekabrın 31-dək ) ərzində ən azı 2 milyon manat dövriyyə tələb olunur;
- digər tələblər;
- malgöndərənin müvafiq sahədə peşəkarlığı və təcrübəsi (lot üzrə son 3 müqavilə və işlərin təhvil verilməsi ilə bağlı təhvil-təslim aktı və ya ən sonuncu forma 3);
- malgöndərənin texniki imkanları (icra olunacaq işlər üzrə işlərin görülməsinin standartlara cavab verə biləcək avadanlıqları).

1. Özüboşaldan-10 ədəd, 2.Ekskavator-2 ədəd, 3.Yükləyici-1 ədəd , 4.Avtoqreyder-2 ədəd, 5.Yol basan-2 ədəd, 6.Asfalt yayan-2 ədəd,

7. Bitumsəpələyici -1 ədəd , 8. Avtobetonqarışdırıcı – 2 ədəd, 9. Yol basan -2 ədəd, 10. Su maşını -1 ədəd texnikaların olması vacib şərtdir.

Həmçinin təqdim ediləcək texnikaların 20 faizi öz balansında olmalıdır. Texniki pasportların surətləri təqdim olunmalıdır; (podratçının) özününkü deyilsə, onların icarəyə götürüləcəyi və ya satın alınacağı haqqında əldə olunmuş razılıq sənədinin (müqavilə və ya niyyət protokolu) nüsxəsi təqdim olunmalıdır. Təqdim olunan sənəddə maşın və mexanizmlərin hazırki sahiblərinin adları, ünvanları və əlaqə yaradılması üçün məlumatlar.

İşin adına uyğun olan beynəlxalq səviyyəli sertifikart (zəruridir).

1. İşlərin keyfiyyətinin idarə olunması ilə bağlı ISO 9001:2015 sertifikatı.
2. Keyfiyyət İdarəetmə-Müştəri Məmnuniyyəti ilə bağlı İSO 10002:2018 sertifikatı.

Asfalt işlərinin görülməsi üçün sahəyə gətiriləcək asfalt (asfalt zavodu tikinti aparılacaq sahə ilə 60 km məsafəyədək) yerləşməli və yaxud mobil tipli asfalt zavodu quraşdırılmalıdır. (qeyd-podratçının özününkü deyilsə, icarəyə götürəcəyi asfalt zavodu və ya mobil tipli asfalt zavodunun icarəyə götürüldüyü ilə bağlı icarə müqaviləsi, həmçinin təsdiqedici sənədlər).

Lot üzrə minimum işçi sayının on (10) nəfər olması (yol mühəndisi-5 il təcrübə -3 nəfər, iş icraçısı-2 il təcrübə-3 nəfər, təhlükəsizlik mühəndisi (SƏTƏM) -2 il- 1 nəfər, geodez-topoqraf-3 il təcrübə-1 nəfər, mühəndis-mexanik- 2 il təcrübə-1 nəfər olması mütləqdir) təqdim edilən işçilərin portaldan bildirişləri,iş təcrübəsi və digər məlumatlar.

Son 3 il ərzində asfalt örtüklərinin tikintisi 1 000 000 kvadrat metr, torpaq layının tikintisi 220 000 kub metr, qum-çınqıl layının tikintisi – 80 000 kub metr çox olması və bununla bağlı podratçı tərəfindən rəsmi blankda arayış.

İşin icrası üçün müqavilə imzalayacağı subpodratçı barədə məlumatlar (subpodratçı cəlb ediləcəyi təqdirdə).

Satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatı (müqavilənin ümumi məbləği 100.000,00 (bir yüz min) ABŞ dollarının manat ekvivalentindən çox olarsa, o zaman satınalma müqaviləsinin 2 faizi miqdarında müqavilənin yerinə yetirilməsi təminatı təqdim edilməli və qüvvədə olma müddəti satınalma müqaviləsinin yerinə yetirilməsi müddətindən 30 bank günü çox olmalıdır.

İddiaçıların son iki il ərzində digər təşkilatlarla iş birliyi haqqında qısa məlumat barədə arayış tam şəffaf şəkildə təqdim edilməlidir (sifarişçi tərəfindən verilmiş təqdimat).

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 5 iyun 2023-cü il saat 18.00-a, bank təminatını və tender təklifini isə 14 iyun 2023-cü il saat 12.00-a qədər Gəncə şəhəri, Heydər Əliyev meydanı, inzibati binada 410-cu otağa təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 16 iyun 2023-cü il saat 12.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" PHŞ

"Füzuli şəhərində yaşayış məhəlləsi"nin konseptual təklifinin hazırlanması məqsədilə

## MÜSABİQƏ ELAN EDİR

İşğaldan azad olunmuş ərazilərdə aparılan tikinti-quruculuq işlərində memarların iştirakını təmin etmək, həmçinin layihələrin icrası zamanı yaradıcı yanaşmaların tətbiqinə şərait yaratmaq məqsədilə Qarabağ İqtisadi Rayonunda Bərpa Tikinti və İdarəetmə Xidməti tərəfindən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin dəstəyi ilə aşağıdakı layihə üzrə konseptual təkliflərin cəlb edilməsi həyata keçirilir.

Layihə- **Füzuli şəhərində yaşayış məhəlləsinin konseptual təklifinin hazırlanması.**

Konseptual təklifin hazırlanması üçün əsas - **layihə tapşırığı.**

Təşkilati-hüquqi sənədlərin təqdim edilməsi üçün son tarix və saat- 2 may 2023-cü il saat 18.00, konseptual təkliflərin təqdim edilməsi üçün son tarix və saat- 18 may 2023-cü il saat 18.00-dır.

İştirak etmək istəyən layihəçilər tərəfindən aşağıdakı sənədlərin və məlumatların hər iki elektron ünvana **(a.babayeva@qbti.gov.az, office@arxkom.gov.az)** göndərilməsi xahiş olunur.

Təqdim olunan sənədlər və məlumatlar qəbul edildikdə iştirakçıya bu barədə bildirişlə birlikdə layihə tapşırığı və zəruri məlumatlar təqdim edilir.

Qeyd- müxtəlif elanlar üzrə təklif vermək üçün sənədlərin və məlumatların bir dəfə təqdim edilməsi və qəbul olunması kifayətdir.

**Təşkilati-hüquqi sənədlər:**

1) Təşkilati strukturu, nizamnaməsi və kommersiya hüquqi şəxslərin reyestrindən çıxarış sənədi.

2) Tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq edilən bina və qurğuların layihələndirilməsinə icazə verən lisenziya.

**Potensialın təsdiqi:**

1. Analoji işlərdə təcrübəsinin təsviri (ümumiləşdirilmiş məlumat, müqavilələr, referans məktubları və s.).
2. Şirkətin icra etdiyi layihələrin əks olunduğu portfolio.
3. İşin tam həcmdə (işçi layihəsi səviyyəsində) icrası üçün hər bir əməkdaşın öhdəsinə düşən vəzifə və tapşırığı göstərməklə təklif olunan əməkdaşlar qrupunun tərkibi (layihə rəhbəri, memar, konstruktor, elektrik, su , kanalizasiya və s. sahələr üzrə mütəxəssislər).
4. İşin tam həcmdə (işçi layihəsi səviyyəsində) icrası üçün qrupun tərkibinə daxil olan mütəxəssislərin tərcümeyi-halı (CV), həmçinin bu mütəxəssislərin əmək müqaviləsi bildirişi və ya bu layihəyə cəlb olunacağı barədə niyyət razılaşması.

Layihələrin təqdim edilmə forması- 1 ədəd A3 ölçülü .pdf formatlı təqdimat faylı.

Layihə təkliflərinin daxili qiymətləndirilməsinin nəticəsi kimi yalnız ilkin müsbət rəy almış təkliflərin müəllifləri ilə əlaqə yaradılacaqdır.

Bütün iştirakçıların müəllif hüquqlarının qorunmasına zəmanət verilir.

## "Elektrikməişətcihaz" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2023-cü il saat 11.00-da "Elektrikməişətcihaz" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Elektrikməişətcihaz" ASC-nin nizamnaməsinin yeni redaktədə təsdiq edilməsi.

**2.** 2021-2022-ci illərin mühasibat balansının və illik hesabatının müzakirəsi və təsdiqi.

**3.** Səhmdar cəmiyyətin müşahidə (direktorlar) şurasının,idarə heyətinin və maliyyə-təftiş komissiyasının yeni üzvlərinin seçilməsi.

**4.** Digər cari məsələlərin müzakirəsi.

Ümumi yığıncaqda səhmdarların iştirakı arzuolunandır.

Ünvan-Bakı,Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Xocasən yolunun kənarı.

***İdarə heyəti***

## "Binəqədi Yük Avtonəqliyyat - 1" ASC səhmdarlarının nəzərinə!

10 iyun 2023-cü il saat 11.00-da "Binəqədi Yük Avtonəqliyyat-1" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** Cəmiyyətin 2022-ci təsərrüfat ili üzrə maliyyə balansının müzakirəsi və təsdiqi.

**2.** Dividendlərin verilməsi.

**3.** Sair məsələlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

**Ünvan-** Bakı şəhəri,Binəqədi rayonu, Xırdalan-Binəqədi sossesi 1n.

*Formula 1 həyəcanı*

# Dünyanın sürət azarkeşləri Bakının "gözəllik halqası"nda

**Dünyanın 1 nömrəli avtomobil yarışları olan Formula 1-in Bakı trekinin başlamasına sayılı saatlar qalır. Azərbaycan Qran-Prisinə bilet almış istər xarici, istər yerli azarkeşlər "kral yarışlarının" başlamasını səbirsizliklə gözləyirlər. Artıq dünyanın dörd tərəfindən turistlər paytaxt Bakıya gəlməyə başlayıblar. Turistlərin yarışdan xeyli əvvəl ölkəmizə gəlmələri onların, həm də "Odlar yurdu"na marağından irəli gəlir. Necə deyərlər, "Bakı halqası"nda sürət yarışmasının izləyiciləri əvvəlcə şəhərin "gözəllik halqası"nı seyr edirlər**



Müsahibimiz **Olqa Silova** Rusiyadan oğlu, həyat yoldaşı ilə gəlib. Moskvalı qonaq belə böyük tədbirlərin, yarışların insanların sərhədləri aşıb bir-birlərinə daha da yaxın olmaları üçün geniş imkan yaratdığını deyir: "Artıq bir neçə gündür ki, Bakıdayıq. Azərbaycan paytaxtı ilə bağlı o qədər gözəl təəssüratlarımız var ki... Əslində, ölkənizə gəlməmiş bu hisslər artıq qəlbimizə hakim kəsilmişdi. İçərişəhər Tarixi Memarlıq Qoruğu, şəhərə müasirlik verən möhtəşəm göydələnlər, Xəzərin sahilboyu hissəsini özündə birləşdirən Bakının təkrarolunmaz, gözəl siması möhtəşəmdir. Şəhərinizin bir tərəfində çox qədim abidələr görürsən, ona yaxın digər ərazi artıq müasir tikililərlə insanı heyran edir. Eyni zamanda, insanlar güləryüz və qonaqpərvərdirlər. Formula 1 yarışlarında yalnız oğlum tamaşaçı qismində iştirak edəcək. Biz isə Azərbaycanla daha yaxından tanış olmaq üçün hər bir vasitədən istifadə edəcəyik. Mayın 2-də evimizə qayıdacağıq".

**Olqa Silovanın oğlu Vladislav** 10-cu sinif şagirdidir. Deyir ki, Formula 1 yarışlarına böyük marağı var. Elə valideynləri də məhz onun istəyinə görə Bakıya səfəri yarışla eyni vaxta salıblar.



Şarl Leklerə azarkeşlik edir. Düşünür ki, "Ferrari" ən azı ilk üçlükdə yer alacaq.

Formula 1 yarışlarını izləmək üçün Permdən gəlmiş Denis Sosnin və həyat yoldaşı da Bakıda olmaqdan məmnundurlar. Denis Formula 1 yarışlarını Soçidə canlı izlədiklərini deyir: "Soçidəki yarışı maraqla izlədik. Bakıdakı Formula 1 yarışını daha böyük həyəcanla gözləyirik. Bakı trası dünyanın ən sürətli şəhər trekidir. Onun özünəməxsusluğu və unikallığı mübarizəyə xüsusi rəng qatır. Formula 1 yarışlarını izləməklə yanaşı, Azərbaycanla yaxından tanış olmaq fürsəti əldə etdiyimiz üçün məmnunuq. "Dənizkənarı Milli Park", "Fəvvarələr meydanı", həmçinin bir çox parklarda olmuşuq. "Qız qalası" "Şirvanşahlar sarayı", "Yeni bulvar" və digər görməli yerlərlə də mütləq tanış olacağıq. Həmçinin Azərbaycanın regionlarına da ekskursiyamız olacaq".

Şəhərimizin qonaqları arasında Formula 1-i izləməyə gəlmiş qardaş Türkiyə vətəndaşı **Berkay Şahan** avtomobil yarışlarına böyük həvəs göstərdiyini bildirdi. Hataylı qonaq qeyd etdi ki, Bakı trasında Formula 1 yarışı özünəməxsusluğu ilə seçilir: "Tamaşaçılar sürprizlərlə dolu Bakı yarışını səbirsizliklə gözləyirlər. Düşünürəm ki, Azərbaycanda keçirilən növbəti Formula 1 yarışı da bizə unudulmaz anlar bəxş edəcək".



Əminik ki, Formula 1 Azərbaycan Qran-Prisi də ölkəmizdə təşkil edilən digər nüfuzlu yarışlar kimi ən yüksək səviyyədə keçirilərək həm tamaşaçıların, həm pilotların xatirəsində dərin iz qoyacaq.

**Leyla QURBANOVA,**
**Elçin ABBASOV, "Xalq qəzeti"**

*Sosial şəbəkələrdən seçmələr*

**Feysbukun Kəpəz Kəpəz ləqəbli istifadəçisinin səhifəsində yerləşdirilmiş şəkli gördükdə təsirlənməyə bilmədim. Fotodakı böyük səmimiyyət qəlbləri riqqətə gətirir. Əsl insanlıq nümunəsidir!**

# İnsanlıq nümunəsi və ya futbolun gözəlliyi

Gəncənin "Kəpəz" komandasının baş məşqçisi Tərlan Əhmədovun öz legioner futbolçuları ilə bölüşdüyü qol sevinci anı çox incə bir məqamdır. Sanki, Tərlan müəllim bir ata nəvazişi ilə öz doğma övladlarını bağrına basır. Uşaqlar da bir görün, ona necə sığınıblar.

Fb-də fotoya yazdığım rəydə onun beynəlxalq müsabiqəyə layiq olduğunu bildirdim. Kəpəz Kəpəz də dərhal reaksiya verib soruşdu ki, onu müsabiqəyə necə təqdim etmək olar. Deyin, göndərək.

Zənnimcə, bu fotonu yadda saxlayıb, nə vaxtsa ölkə miqyasında və ya beynəlxalq səviyyədə hər hansı bir müsabiqə keçirilsə, onu "meydana çıxarmaq", fotonun müəllifinə kömək etmək olar. Yəqin ki, bu məsələdə "Xalq qəzeti"nin fotomüxbiri, hörmətli Elşən Ağalar da, hər şeydən göründüyü kimi, bütün varlığı ilə dünyalar qədər sevdiyi komandasının yanında olan Kəpəz Kəpəzə dəyərli məsləhətini verə bilər.

Foto təkcə T.Əhmədovun uzaq-uzaq ölkələrdən gəlib, Azərbaycanda legioner həyatı yaşayan, Premyer Liqamızda Gəncənin "Kəpəz" komandasının şərəfini qoruyan, onun qollarına və qələbələrinə sevinən gənclərə olduqca xoş münasibətinin yaddaqalan təzahürü deyil. Gəncə şəhər stadionunda, bilmirəm, hansı oyunun gedişində lentə alınmış, müəllifini də elə Kəpəz Kəpəz kimi tanıdığım bu foto futbolun yaraşığı, gözəlliyi, təntənəsidir!



Bir daha əmin olduq ki, futbol təkcə yarış deyil, həm də yarışanlara, nəcib keyfiyyətli insanlara ali hisslər aşılayan, yalnız və yalnız xeyirxah məqsədlərə xidmət edən 1 nömrəli idmandır.

Elə isə yaşasın futbol – bütün gözəlliyi və səmimiyyəti ilə!

**Oqtay BAYRAMOV,**
**Əməkdar jurnalist**

# Güləşçilərimizin Avropa qələbəsi milli idmanımıza layiqli töhfədir




**Xorvatiyanın Zaqreb şəhərində keçirilən güləş üzrə Avropa çempionatında idmançılarımızın uğurlu nəticələri ilə bağlı tədbir keçirilib.**

Tədbirdə Azərbaycan Güləş Federasiyasının (AGF) rəhbəri Mikayıl Cabbarov qitə birinciliyində qazanılmış tarixi uğurlarla bağlı idmançılara Prezident İlham Əliyevin təbriklərini çatdırıb. Vurğulanıb ki, artıq bütün sərhədlərimiz boyunca Azərbaycan bayrağı dalğalanır. Güləşçilərimiz Avropa çempionatında qazandıqları uğurları sərhədlərimizi qoruyan hərbi qulluqçularımıza, Ali Baş Komandana və Azərbaycan xalqına həsr edir.

Bildirilib ki, sentyabrda Serbiyada təşkil ediləcək güləş üzrə dünya çempionatı 2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına lisenziyalar qazandıracaq. Bu baxımdan həmin yarış böyük önəm kəsb edir. Dünya çempionatında yüksək nəticələrin əldə edilməsi üçün Güləş Federasiyası tərəfindən hər cür şərait yaradılacaq. Regionlarımızda da güləşin inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, 2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunlarına indidən hazırlaşmaq üçün U-15 və U-17 yaş qruplarına xüsusi diqqət ayrılması da vacibdir.

AGF-nin baş katibi Nəsimi Musayev, milli komandaların baş məşqçiləri Xetaq Qazyumov, Semyon Çterev, Aleksandr Tarakanov, aparıcı güləşçilərimiz Eldəniz Əzizli, Əliabbas Rzazadə, Jalə Əliyeva, AGF İcraiyyə Komitəsinin üzvləri Namiq Abdullayev və Fərid Mansurov çıxış edərək qazanılan uğurlar və hədəflərdən danışıb, güləşin inkişafı üçün təkliflərini səsləndiriblər.

Tədbirdə yeniyetmə və gənc nəslin sağlam ruhda yetişməsi və onlar arasında idmanın təşviqi, eləcə də regionlarda güləşin inkişafı istiqamətində görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, qitə birinciliyində güləşçilərimiz 5 qızıl, 6 gümüş və 3 bürünc olmaqla, ümumilikdə 14 medal qazanıblar. Sərbəst güləş üzrə millimiz komanda hesabında 1-ci, yunan-Roma güləşi üzrə millimiz isə 2-ci yeri tutub.

***Leyla SABİRQIZI,***
***"Xalq qəzeti"***

# Süni intellekt uşaqlara dərs keçəcək

**Son zamanlar süni intellekt texnologiyaları həyatımızın demək olar ki, bütün sahələrə inteqrasiya olunub. Bu gün süni intellekt texnologiyaları ilə şəkil çəkmək və ya mətnlər yazmaq xeyli asanlaşıb. Ancaq görünür ki, süni intellekt ilə bundan daha çoxunu etmək mümkün olacaq. Belə ki, "Microsoft"un həmtəsisçilərindən olan Bill Qeyts son dərəcə diqqətçəkən açıqlamalar verib. Məlumatı "cnbc.com" saytı yayıb.**



Microsoft-un qurucusu San Dieqoda keçirilən sammitdə çıxış edərək deyib: "Süni intellektə əsaslanan çatbotların yaxın 18 ayda uşaqların təhsilində mühüm rol oynayacağı düşünülür. "ChatGPT" və "Google Bard" kimi xidmət çatbotları "inanılmaz axıcılığa" malikdir. Bu isə süni intellektin tezliklə müəllimlərlə eyni səviyyədə oxuma və yazma öyrədə biləcəyi deməkdir".

Süni intellektin gücü bununla məhdudlaşmayacaq. Növbəti mərhələdə riyaziyyatın tədrisində də süni intellektdən istifadə olunacaq. Lakin riyazi hesablamalar hər zaman mürəkkəb olduğu üçün süni intellekt vasitələri xüsusi hazırlanmalı olacaq. Bu isə təxminən 2 illik bir müddət deməkdir.

Bill Qeyts süni intellektin üçüncü mərhələdə fərdi dərslər verə biləcəyini də qeyd edib. Üstəlik, bu dərs fərdi şəkildə deyil, bütün sinif şagirdləri üçün əlçatan olacaq. Lakin bunun üçün çox zaman lazım olduğu vurğulanıb. Növbəti illər süni intellektin öz bacarıqlarını nümayiş etdirməsi üçün həlledici olacaq.

**Əfsanə ƏHƏDLİ,**
**"Xalq qəzeti"**

# Türkiyənin reaktiv təyyarəsinin ilk uçuşu

**Türkiyənin HÜRJET təlim təyyarəsinin prototipi aprelin 25-də ilk uçuşunu uğurla həyata keçirib. Təyyarə bir müddət havada qaldıqdan sonra yerə eniş edib.**




HÜRJET-in ilk uçuşunu Türkiyə Silahlı Qüvvələrinin istifadəsində yer alan F-16 döyüş təyyarəsi müşayiət edib. Türkiyə aviasiya tarixində ilk dəfə olaraq unikal imkanlarla dizayn edilmiş hərbi təyyarənin 2025-ci ilə qədər bu ölkənin Hərbi Hava Qüvvələrinin inventarına daxil olacağı gözlənilir. HURJET Türkiyənin ilk reaktiv mühərrikli hərbi təyyarəsidir.

TUSAŞ şirkəti tərəfindən milli və yerli imkanlar hesabına hazırlanan reaktiv mühərrikli HÜRJET təlim təyyarəsi ilk dəfə anqardan ötən ilin dekabrında çıxarılıb. Həmin vaxt təyyarə evakuatoru vasitəsi ilə anqardan çıxarılan birinci prototip eniş dəstləriylə təchiz edilsə də, mühərriki üzərinə inteqrasiya olunmamışdı.

***R.ABİŞOV,***
***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ *Aprelin 27-də*

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub küləyi əsəcək. Gecə 11-15°, gündüz 18-23° isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunundan 758 mm civə sütununa enəcək, nisbi rütubət 60-70 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 21-26° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-9°, gündüz 11-15°, bəzi yerlərdə 16-19° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 4-9°, gündüz 11-15°, bəzi yerlərdə 17-20° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 9-14°, gündüz 21-26° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı,Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 8-13°, gündüz 19-24°, dağlarda gecə 3-8°, gündüz 12-17° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 11-16°, gündüz 23-28° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Gecə 11-16°, gündüz 20-25°, dağlarda gecə 10-13°, gündüz 16-20° isti olacaq.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 1018
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır
00:00